**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**A.A.BAKIXANOV adına TARİX İNSTİTUTU**

*Əlyazması hüququnda*

**GÜLÇİNƏ QURBAN QIZI YETİRMİŞLİ**

# AZƏRBAYCAN SSR-DƏ AQRAR MÜNASİBƏTLƏR (XX ƏSRIN 20-30-CU ILLƏRI)

**İxtisas: 5503.02 - Vətən tarixi**

**Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

# A V T O R E F E R A T I

**BAKI – 2016**

*Dissertasiya Azərbaycan MEA A.A.Bakıxanov adına Tarix İnstitutunun Azərbaycanın müasir tarixi şöbəsində yerinə yetirilmişdir*

**Elmi rəhbər:**
Tarix üzrə elmlər doktoru, professor **F.F.İbrahimli**

**Rəsmi opponentlər:**
Tarix üzrə elmlər doktoru, **Ə.Q.Qasımov**
Tarix üzrə fəlsəfə doktoru, dosent **A.X.Xəlilov**

**Aparıcı təşkilat** – Bakı Dövlət Universitetinin "Azərbaycan tarixi" (humanitar fakültələri üzrə) kafedrası

Müdafiə Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun nəzdində 5503.02 – "Vətən tarixi", 5502.01 – "Ümumi tarix", 5507.01 – "Beynalxalq münasibətlər tarixi", və 5509.01 – "Tarixşünaslıq, mənbəşünaslıq və tarixi tədqiqat üsulları" ixtisasları üzrə tarix üzrə elmlər doktoru və tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.01.161 Dissertasiya Şurasının «26___»__10______ 2016-ci il tarixli iclasında saat «___» -da keçiriləcəkdir.

**Ünvan**: 1143, Bakı şəhəri, H.Cavid prospekti, 115

Dissertasiya ilə Azərbaycan MEA A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Arxivində tanış olmaq olar.

Avtoreferat "____"______________2016-ci ildə göndərilmişdir

**Dissertasiya Şurasının elmi katibi**
**tarix üzrə fəlsəfə doktoru** **C.Ə.Bəhramov**

# I. DİSSERTASİYANIN ÜMUM SƏCİYYƏSİ

**Mövzunun aktuallığı**. Xalqımızın XX yüzillikdə keçdiyi son dərəcə mürəkkəb və ziddiyyətli tarixi yol hələ də özünün obyektiv tədqiqini gözləyir.

Ümummilli lider Heydər Əliyevin söylədiyi kimi «Azərbaycanın çoxəsrlik tarixi var... XX əsr bəşər tarixində çox görkəmli yer tutur. Hər bir ölkə, hər bir xalq XX əsrdə öz xalqı, ölkəsi üçün nələr əldə etdiyini, nələr itirdiyini əsrin sonuna qədər yekunlaşdırmalıdır. Biz Azərbaycanın XX əsr tarixini yazmalıyıq. XX əsrdə keçdiyimiz yolu araşdırmalıyıq, tədqiq etməliyik. Nə əldə etdiyimizi, nə itirdiyimizi müəyyən etməliyik. Bu, bizim ümumi vəzifəmizdir. Alimlərimizin, tədqiqatçılarımızın qarşısında duran vəzifədir. Biz bunu etməliyik». [1] Alimlərimiz qarşısında vacib şərt kimi qoyulan bu genişməzmunlu müddəanın yerinə yetirilməsinin xalqımız üçün çox böyük əhəmiyyəti vardır. Biz XX əsrdə çox şey qazanmış, eyni zamanda elə o qədər də itirmişik. Şərqdə ilk Xalq Cümhuriyyətini yaratmışıq, az sonra bolşevik istilası ilə onu itirmişik. Çox görkəmli ziyalılarımız yetişib, amma onların ən dəyərliləri rejim tərəfindən məhv edilib.

Yaşadığımız bu mərhələnin mühümlüyünü xatırladan Ulu öndər dəfələrlə bu məsələyə toxunub, onun vacibliyini alimlərimizə xatırladıb. H.Ə.Əliyev 1997-ci il yanvarın 31-də Azərbaycan EA-nın aparıcı alimləri ilə görüşündəki nitqində də tarixin müstəqil şəkildə yenidən yazılmasının əhəmiyyətindən danışaraq qeyd edirdi ki, «70-ci illərdə mən dəfələrlə Elmlər Akademiyasının qarşısında vəzifə qoymuşdum ki, Azərbaycanın tarixi yazılmalıdır. Amma bu gün mənim haqqım var deyəm ki, tarixçilərimiz bu vəzifəni yerinə yetirmədilər, Azərbaycanın tarixi yazılmalıdır ... Alimlərimizin, tarixçilərimizin günahından yox, o vaxtkı ümumi ideologiyanın təsiri, yaxud bu ideologiyanın tələbi ilə yazılan tarix də, şübhəsiz ki, indi bizi qane edə bilməz”.[2] Bu baxımdan sözsüz ki, Azərbaycanın tarixi keçmişinin yeni milli elmi konsepsiya əsasında təfəkkür süzgəcindən keçirilməsi və öyrənilməsi çox vacib və zəruridir.

Sovet hakimiyyəti illərində birtərəfli və qeyri-obyektiv,idealoji tələblərə uyğun şəkildə yazılmış əsərlərdə tariximiz təhrif olunmuşdur.Hərçənd müəlliflərin bir çoxu hadisələrin işıqlandırılmasını bolşevik tələblərinə uyğun yazsalar da, baş verən gerçəklikləri sətiraltı fikirləri ilə işıqlandırmağa səy göstəriblər. Ona görə də ölkəmiz öz müstəqilliyini əldə etdikdən sonra ilk növbədə onun tarixinin yazılmasına başlanıldı, yeni məzmunlu bir çox əsərlər nəşr olundu. Azərbaycan milli tarixinin yenidən yazılması günün vacib məsələlərindən birinə çevrildi. Düzdür, bu sahədə bütövlükdə çox işlər görülür, amma sovet hakimiyyəti dövrünün tarixi baxımından görüləsi işlər hələ qabaqdadır.

---

[1] Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Altıncı kitab. B., 1998, s. 77; Azərbaycan, 1996, 9 aprel

[2] Yenə orada. Səkkizinci kitab. B., 1998, s. 367; Azərbaycan, 1997, 1 fevral

Azərbaycanın sovet dövrü tarixi bütövlükdə vətən tarixinin ən mürəkkəb, ziddiyyətli və kəşməkeşli dövrlərindən biridir. Həmin dövrdə Azərbaycan SSR-in aqrar ölkə olduğunu, burada aqrar münasibətlərin də ziddiyyətlər üzərində qurulduğunu, xüsusilə də Sovet Rusiyasının toxuculuq sənayesinin, yanacaq ehtiyatlarının pambıq, ipək və neft kimi xammalla təmini üzərində qurulduğunu nəzərə alsaq, ölkənin bu dövr tarixinin, o cümlədən, aqrar münasibətlərinin yenidən öyrənilməsinə böyük ehtiyac var.

Ölkə iqtisadiyyatının bazar iqtisadiyyatına keçidi, erməni təcavüzü nəticəsində Azərbaycan Respublikası torpaqlarının 20%-dən artıq hissəsinin itirildiyi, 1 milyondan artıq həmvətənimizin qaçqın düşdüyü və nəticədə ölkədə işçi qüvvəsi nisbətinin kəskin dəyişdiyi, kənddə torpaq və mülkiyyət, əkin və suvarma, məhsulun becərilməsi və realizəsi məsələsinin ctddiləşdiyi, sosial təbəqələşmənin kəskinləşdiyi, vergi məsələsinin həllinin əhəmiyyət kəsb etdiyi bir dövrdə belə bir mövzunun öyrənilməsi, keçmiş tarixdən lazımi təcrübələrin əxz edilməsi baxımından mühüm elmi aktuallıq kəsb edir.

Azərbaycan Respublikasında torpaq islahatının həyata keçirilməsi bilavasitə Ulu öndər H.Ə.Əliyevin adı ilə bağlıdır. Məhz Heydər Əliyevin sosial-ədalət prinsipinə söykənən və 1993-2003-cü illərdə 52-dən artıq Fərman və Sərəncamları ilə qanuniləşdirilən, düzgün icra mexanizimləri ilə həyata keçirilən aqrar siyasətin nəticəsi olaraq Azərbaycan Respublikasında aqrar sahənin inkişafı təmin edildi. Burada «Torpaq islahatı haqqında» Azərbaycan Respublikasının 16 iyul 1996-cı il tarixli Qanununun, eləcə də Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin imzaladığı "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı" (2004-2008-ci illər) (11 fevral 2004), "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın (2009-2013-cü illər) (14 aprel 2009) və "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" (27 fevral 2014) adlı fərmanları ölkəmizdə regionların göstərilən illər üzrə sosial-iqtisadi inkişafının yerinə yetirilməsi ilə torpaq islahatlarının başa çatdırılması sahəsində davamlı iş aparılmış, qeyri-neft sektoruna diqqəti daha da artırmışdır.

Azərbaycan Sovet kəndində baş verən bütün mühüm hadisələr – torpaq-mülkiyyət münasibətləri, dövlətin kəndlilərə və kəndli təbəqələrinin bir-birinə olan münasibətləri, vergilər, sosial münasibətlər, təsərrüfatçılıq formaları kimi aqrar münasibətlərin öyrənilməsi mühüm əhəmiyyət kəsb edir.

Ölkə qarşısında duran həmin məsələlərin həll edilməsi üçün XX əsrin 20-30-cu illərinin aqrar münasibətlərinin tədqiqi və o dövrün həm müsbət, həm də mənfi tarixi təcrübəsinin öyrənilməsi nöqteyi-nəzərindən mövzunun tədqiqi xüsusi əhəmiyyətə malikdir.

**Tədqiqatın xronoloji çərçivəsi** 1920-1930-cu illəri əhatə edir.

**Mövzunun öyrənilmə səviyyəsi.** XIX-XX əsrin əvvəllərini Azərbaycanda aqrar münasibətlər tarixşünaslığında tanınmış alimlər – Ə.S.Sumbatzadə, M.Ə.İsmayılov, İ.M.Həsənov, M.Əfəndiyev, İ.A.Talıbzadə, H.N.Həsənov və b. tərəfindən məqbul sayılacaq dərəcədə araşdırılmış hesab etmək olar. Eyni

sözləri Azərbaycan Xalq Cümhuriyyətinin mövcud olduğu 1918-1920-ci illərə də şamil etmək olar.

Lakin XX əsrin 20-30-cu illəri üzrə bu məsələlər barədə sovet dövrünün tarixşünaslığı haqqında belə bir fikri söyləmək mümkün deyil. Bütövlükdə, istər rus, istərsə də Azərbaycan sovet tarixşünaslığında məlum səbəblər üzündən sovet hakimiyyəti illəri ideallaşdırılır, real tarix isə kölgədə saxlanılırdı.

Sovet tarixşünaslığında ilk vaxtlarda bolşevizmin aqrar siyasətinə – torpağın milliləşdirilməsinə hər vəchlə haqq qazandırılırdısa,[1] artıq XX əsrin 80-ci illərində, ehtiyatla da olsa, bu siyasətin müxtəlif istiqamətləri üzrə tənqidi meyllər hiss edilməyə başlandı.[2] Bu baxımdan aparıcı tanınmış alim V.P.Danilovun yaradıcılığı diqqəti cəlb edir. Onun yaradıcılığında keçid rolunu 20 il sonra – 1977-ci ildə nəşr etdirdiyi "Kolxozaqədərki sovet kəndi: əhalisi, torpaqdan istifadə, təsərrüfat" adlı əsəri oynayır. Burada qanunsuzluqlar və repressiyalar "əyintilər" şəklində tənqid olunur. V.P.Danilovun M.A.Vılsan, V.V.Kabanov və Y.A.Moşkovla birlikdə 1982-ci ildə nəşr etdirdikləri "SSRİ-də kənd təsərrüfatının kollektivləşdirilməsi" əsərində artıq tənqidi münasibət tam aydın şəkildə önə çəkilir. Bu, o dövr üçün son dərəcə cəsarətli addım idi. Onun SSRİ-nin çökməsindən dərhal sonra dərc etdirdiyi əsərlərində artıq tamamilə yeni münasibət təqdim olunur.

Rus tarixşünaslığında ayrı-ayrı tədqiqatçıların ümumiləşdirici əsərlərində də Azərbaycan tarixinin tədqiq olunan dövrü üzrə məsələlərə toxunulur. Onlardan E.B.Genkina, M.İ.Baxtin, Y.A.Polyakov, N.A.İvnitski, İ.Y.Zelenin, L.N. və N.L.Lopatinlərin və bir çox başqalarının əsərlərini misal gətirmək olar.[3]

---

[1] СССР в период восстановления народного хозяйства (1921-1925). М., 1955; История СССР с древнейших времен до наших дней, т. 8. М., 1967; Советское народное хозяйство в 1921-1925 гг. М., 1960; Сельское хозяйство СССР. М., 1960; Октябрь и советское крестьянство, 1917-1927. М., 1977; История крестьянства СССР. История советского крестьянства, т. I, Крестьянство в первое десятилетие Советской власти – 1917-1927. М., 1986; Генкина Э.Б. Переход Советского государства к новой экономической политике (1921-1925). М., 1954; Бахтин М.И. Союз рабочих и крестьян в годы восстановления народного хозяйства (1921-1925). М., 1961; Поляков Ю.А. Переход к НЭП-у и советское крестьянство. М., 1967 и др.

[2] Данилов В.П. Создание материально-технических предпосылок коллективизации сельского хозяйства СССР. М., 1957; yenə onun. Советская доколхозная деревня: население, землепользование, хозяйство. М., 1977; Вылцан М.А., Данилов В.П., Кабанов В.В., Мошков Ю.А. Коллективизация сельского хозяйства в СССР. Пути, формы, достижения. М., 1982 və s.

[3] Генкина Э.Б. Переход Советского государства к новой экономической политике (1921-1925). М., 1954; Бахтин М.И. Союз рабочих и крестьян в годы восстановления народного хозяйства (1921-1925). М., 1961; Поляков Ю.А. Переход к НЭП-у и советское крестьянство. М., 1967 və s.; Ивницкий Н.А. Репрессивная политика советской власти в деревне (1928-1933). М.: 2000; Голод 1932-1933 годов в СССР. М., 2009; Коллективизация и раскулачивание (начало 30-х годов). М., 1997; Зеленин И.Е.

Qərb tarixçiləri sovet tarixçilərindən fərqli olaraq, sovet hakimiyyətinin ilk illərində və sonrakı dövrlərdə bolşevik rejimini, onun kənddə apardığı repressiv siyasətini kəskin şəkildə pisləmiş, bu sahədə xeyli sayda əsərlər yazmışlar. Bu sırada diqqət çəkən əsərlərdən biri alman alimi Yorq Baberovskinin 2003-cü ildə Münhendə çap olunmuş və 2010-cu ildə rus dilində Moskvada nəşr edilmiş "Düşmən hər yerdə var. Qafqazda stalinizm (stalinizmin tarixi)"[1] monoqrafiyasıdır. Bu əsər Azərbaycan tarixinin 1824-1914-cü və qismən 1929-1933-cü illərini əhatə edir.

Diqqəti cəlb edən tədqiqatlardan biri də Viola Linnin hələ sovet arxivlərinin tam açılmadığı bir vaxtda – 1987-ci ildə nəşr etdirdiyi "Vətənin ən yaxşı oğulları: Fəhlələr sovet kollektivləşdirməsinin önündə"[2] əsəridir. Viola L. Qərb tarixçilərindən ilk dəfə olaraq sovet arxivlərində kollektivləşdirilmə ilə bağlı materiallara baxmaq üçün icazə ala bilmiş və əldə etdiyi materiallar əsasında əsərində tarixdəki "Stalin inqilabını" təhlil edə bilmişdir. Viola L. ilk qərbli kimi Stalinin zərbəçi döyüşçülərinin – 25 minçi rəhbər fəhlə kadrlarının kəndə göndərilməsi və kollektivləşdirmə sahəsində oradakı fəaliyyətini işıqlandırmağa çalışmışdır.

Viola L. Nyu-Yorkda 1999-cu ildə çapdan çıxmış "Stalinə qarşı kəndli qiyamları. Kəndlilərin kollektivləşdirməyə və mədəni quruculuğa qarşı müqaviməti"[3] adlı kitabı daha geniş arxiv sənədləri əsasında yazıldığından, əvvəlki əsərdən xeyli fərqlənir. Bu, sovet kollektivləşdirilməsinə qarşı baş vermiş kəndli üsyanını sənədlər əsasında işıqlandıran ilk əsərdir.

Viola L. 2005-ci ildə özünün şah əsərini nəşr etdirmişdir. "Kəndlilərə qarşı müharibə, 1927-1930: Sovet kəndinin faciəsi"[4] adlanan bu monoqrafiyada kəndlinin sovetlərdə iqtisadi və mədəni cəhətdən amansızcasına tabe etdirilməsindən bəhs edilir.

Diqqəti cəlb edən Qərb müəlliflərindən biri kənd təsərrüfatının kollektivləşdirilməsi üzrə ixtisaslaşmış alim Şeyla Fispatrikdir. Onun "Stalin kəndliləri: Rusiya kəndində kollektivləşmədən sonrakı müqavimət və güzəran"[5] adlı monoqrafiyasında bütövlükdə kolxoz quruculuğu və kəndlilərin adi həyatının dağıdılması təhlil edilir. Bu müəllifin "Gündəlik Sta-

---

Совхозы СССР в годы довоенных пятилеток 1928-1941. М., 1982; Сталинская "революция сверху" после "великого перелома", 1930-1939. Политика, осуществление, результаты. М., 2006; Лопатин Л.Н., Лопатина Н.Л.. Коллективизация и раскулачивание (очевидцы и документы свидетельствуют). Кемерово, 2009.

[1] Баберовски Й. Враг есть везде. Сталинизм на Кавказе. М., 2010.

[2] Viola L. The Best Sons of the Fatherland: Workers in the Vanguard of Soviet Collectivization. New York, 1987.

[3] Viola L. Peasant Rebels under Stalin. Collectivization and the Culture of Peasant Resistance. New York: 1999.

[4] Viola L. The War Against The Peasantry, 1927-1930: The Tragedy Of The Soviet Countryside. New Haven, 2005.

[5] Fitzpatrick Sh. Stalin's peasants: resistance and survival in the Russian village after collectivization. New York, 1994.

linizm: Fövqəladə zamanın adi həyatı: Sovet Rusiyası 1930-cu ildə”[1] adlı əsərində əsas diqqət 1930-cu ilin şəhər rayonlarına yönəldilir və göstərilir ki, zorakı kollektivləşdirilmə fonunda birinci beşilliyin qəbul edilməsi ilə məişət tamamilə dəyişmişdi.

Qərbdə nəşr olunan kitablardan biri də ingilis tarixçisi Robert Konquestin 1986 və 1987-ci illərdə iki dəfə çap olunmuş "Qəm biçini: Sovet kollektivləşdirməsi və aclıq terroru" əsəridir. Bu əsər mövzunu araşdıran ilk bitkin tədqiqatdır. Burada müəllif XX əsrin ən dəhşətli insan faciələrindən biri olan sovet kəndinin Kommunist Partiyasının rəhbərliyi ilə zorakı kollektivləşdirilməsini, milyonlarla insanın ölümü və deportasiyası ilə müşayiət olunan kəndli ailələrinin yer-yurdundan didərgin salınmasını, torpaq üzərində xüsusi mülkiyyətin ləğv edilməsini, kəndlilərin zorakı yolla bir təsərrüfatda cəmləşdirilməsini, 1929-1932-ci illərdə yüksək taxıl hazırlığı kvotasını tətbiq etməklə ikiqat zərbə vuraraq, xüsusilə də 1932-1933-cü illərdə olan-qalan ərzaqlarının əllərindən alınmasını, onlara qarşı terror və aclıq gətirilməsini araşdırmışdır. Müəllif bu kitabda apardığı hesablamalar əsasında 1937-ci ilin əvvəlinədək ölən və öldürülənlərin yalnız kəndlilərdən ibarət olduğunu və onların sayının 14,5 milyondan artıq olduğunu bildirir.[2]

Qərbin diqqət çəkən kitablarından biri də müəlliflər heyətinin yazdığı "Kommunizmin qara kitabı: Cinayətlər. Terror. Repressiyalar" fundamental tədqiqatıdır.[3] Bu kitab sovet dövrünün ən mühüm dövrlərindən yalnız birini tarix üçün şərh edir, onun qurbanlarının sayını, ağır, dəhşətli, qanlı Stalin dövrünü əks etdirir. Kitabda Stalin və onun havadarlarının zülmü altında bütün xalqlardan olan kəndlilərin qədim tarixi köklərinin məhv edilməsi açılıb göstərilir.

Adı çəkilən kitablarda Azərbaycan SSR, onun nefti və pambığı haqqında ayrıca söhbət açılır.

Azərbaycan sovet tarixşünaslığında da rus sovet tarixçilərinin yaradıcılığında olduğu kimi eyni mənzərə müşahidə edilir. Burada da Azərbaycan SSR kənd təsərrüfatının bərpası məsələləri həm bir sıra ümumiləşdirici əsərlərdə, həm də aqrar məsələnin müxtəlif sahələrinə həsr olunmuş monoqrafiyalarda və məqalələrdə məlum səbəblər üzündən dövrün təriflənməsi məsələləri öz əksini tapmışdır.

İlk vaxtlar tarixşünaslığımızda hadisələri isti izlərlə tədqiq edəcək tədqiqatçılar olmadığından, prosesin tədqiqinə xeyli sonra – XX əsrin 40-50-ci illərində başlanıldı. Bu sahədə Azərbaycan SSR-də bilavasitə azərbaycanlılar tərəfindən aparılan tədqiqatları iqtisadiyyat və tarixilik baxımından iki yerə bölmək olar. Sovet hakimiyyətini daha çox iqtisadi səmərəlilik maraqlan-

---

[1] Fitzpatrick Sh. Everyday Stalinism: Ordinary Life in Extraordinary Times: Soviet Russia in the 1930s: New York, 1999.

[2] Conquest R. The Harvest of Sorrow: Soviet Collectivization and the Terror-Famine. New York, 1987, p. 285.

[3] The Black Book of Communism: Crimes, Terror, Repression. Cambridge, Massachusetts. London, England, 1999.

dırdığından, ilk elmi tədqiqatlar da elə bu mövzuda aparılmışdır.

Bu baxımdan diqqəti ilk cəlb edən tədqiqat işi Z.H.Cahangirovun 30-cu illərdə pambıqçılığın və bu işdə qadınların daha çox iştirakının təbliğinə həsr olunmuş "Pambıqçılıq kolxozlarında əməyin manqa üsulu ilə təşkili" adlı dissertasiyasıdır. Burada müharibə aparan dövlət üçün mühüm strateji əhəmiyyət kəsb edən pambıqçılıqda o dövrdə dəbdə olan ictimailəşdirmə yolları – pambığın manqa tərəfindən ümumilikdə becərilməsi təbliğ edilir.[1]

Bu dövrlə bağlı diqqəti cəlb edən sonrakı tədqiqatçılardan X.A.Əliyev, X.O.Əlimirzəyev, İ.K.Qasımov, M.Səlimov, A.M.Atakişiyev, A.Ə.Məmmədov, E.İ.Məmmədov, D.H.Qüdrətov, A.M.Məmmədov və başqalarının tədqiqatlarını qeyd etmək olar.[2]

---

[1] Cahangirov Z.H. Pambıqçılıq kolxozlarında əməyin manqa üsulu ilə təşkili. Bakı, 1944. – 164 s. Dissertasiya AMEA Elmi kitabxanasında saxlanılır.

[2] Əliyev X.A. Sovet hakimiyyəti Azərbaycan kəndlilərinə nə verdi? B., 1957; yenə onun. Azərbaycan zəhmətkeşləri respublikada pambıqçılığın bərpa edilməsi uğrunda mübarizədə // Azərbaycan SSR EA Tarix İnstitutunun əsərləri. B., 1957, c. XII, s. 5-30; yenə onun. Kommunist Partiyası Azərbaycanda pambıqçılığın inkişaf etdirilməsi uğrunda mübarizədə. B., 1960; Əliyev X, Əlimirzəyev X. Azərbaycanda kənd təsərrüfatının kollektivləşməsi tarixindən. B., 1957; Əlimirzəyev X. Kənd təsərrüfatının əsaslı yüksəlişi uğrunda. B., 1955; yenə onun. Kənd təsərrüfatının elliklə kollektivləşməsi üçün şəraitin yaradılması (Azərbaycan SSR Şirvan zonası rayonlarının materialları üzrə). Azərbaycan SSR EA Tarix və fəlsəfə institutunun əsərləri. B., 1956, c. IX, s. 136-181; yenə onun. Azərbaycan kəndi sovet hakimiyyəti illərində. B., 1963; yenə onun. Борьба Коммунистической Партии Азербайджана за социалистическое преобразование деревни (1920-1937 гг.). Б., 1967; yenə onun. Советский Азербайджан - детище Великого Октября. Б., 1958; Токаржевский Е.А. К вопросу о введении продналога в Азербайджане (1921-1922) // Труды Истфака АГУ, вып. 1, 1950; yenə onun. Очерки истории Советского Азербайджана (1921-1925). Б., 1956; yenə onun. К вопросу о восстановлении сельского хозяйства Азербайджана в 1921-1926 гг. // Труды Института истории и философии АН Азербайджанской ССР. Б., 1956, т. IX, с. 114-135; Азизбекова П.А. Руководство Ленина социалистическим строительством в Азербайджане (1920-1923). Б., 1960; yenə onun. В.И.Ленин и социалистические преобразования в Азербайджане. М., 1962; Atakişiyev A.M. Xalq təsərrüfatının bərpası dövründə Azərbaycanda fəhlə sinfi ilə kənlilərin ittifaqının möhkəmləndirilməsi uğrunda mübarizə (1921-1925-ci illər). B., 1961; Мамедов А.А. Рабочий класс Азербайджана в период построения фундамента социалистической экономики (1926-1932) // *habelə* Рабочий класс Азербайджана в период победы социализма и упрочения социалистического общества (1933-1940 гг.) // Очерки истории рабочего класса Азербайджанской ССР. Т. I (1917-1940). Б., 1974, с. 131-193, 194-299; Дильбазов А. Состояние сельского хозяйства Азербайджана к началу восстановительного периода. Национализация земель // Труды АПИ им. В.И.Ленина, т. III. Б., 1957; yenə onun. Bakı fəhlələrinin Azərbaycan kəndinə köməyi (1920-1923). B., 1959; Кадырова (Осипова) Н.Г. О шефской работе в Азербайджанской деревне (1926-1929 гг.) // Труды Института истории АН Азербайджанской ССР, т. XIV, 1960; Köçərli T. Azərbaycan Kommunist Partiyası sosializm qurmaq uğrunda mübarizədə. B., 1962; yenə onun. Tarixi saxtalaşdıranlar əleyhinə. Bakı, 1972; yenə onun. Исторический поворот в судьбах азербайджанского народа. Б., 1980; Qurbanov B.S. Bakı fəhlələrinin Azərbaycan kəndinə hamilik köməyi (1923-1934-cü illər). B., 1960; Məmmədov E.İ. Azərbaycan kəndində sinfi mübarizə (1927-

X.A.Əliyevin "Kommunist Partiyasının Azərbaycan SSR-i Sovet İttifaqının qüdrətli pambıq mənbələrindən birinə çevirmək uğrunda mübarizəsi (1930-1934-cü illər)" adlı dissertasiyasında[1] və X.O.Əlimirzəyevlə birgə nəşr etdirdiyi "Azərbaycanda kənd təsərrüfatının kollektivləşməsi tarixindən (1930-1934-cü illər)"[2] adlı monoqrafiyada kəndli həftəliklərinin keçirilməsi, pambıqçılığın genişləndirilməsi ilə bağlı kəndlilərlə fərdi və kollektiv müqavilələrin bağlanması, kooperativləşmə, kommunaların, artellərin yaradılması, bölgələrdə yoxsullar müşavirələrinin keçirilməsi, kəndlilərin sovetlərlə və fəhlələrlə münasibətləri məsələlərinə geniş yer verilmişdir. Əsərdə partiyanın və sovetlərin kəndliyə və onun əməyinin "dəyərləndirilməsinə", onların dövlətin "qayğısı" nəticəsində manufaktura və s. mallarla təmin olunmasına xüsusi diqqət yetirilir. RSFSR-in Azərbaycan kəndlisinə "təmənnasız qayğısı və yardımı" bütün əsər boyu qeyd olunur.

X.A.Əliyevin 1957-ci ildə nəşr etdirdiyi "Sovet hakimiyyəti Azərbaycan kəndlilərinə nə verdi?" kitabı və Azərbaycan EA Tarix İnstitutunun əsərlərinin XII cildində çap etdirdiyi "Azərbaycan zəhmətkeşləri respublikada pambıqçılığın bərpa edilməsi uğrunda mübarizədə" adlı məqaləsində də kəndlinin dövlət və partiya ilə qarşılıqlı münasibətlərinə toxunur. Müəllifin 1960-cı ildə çapdan çıxmış "Kommunist Partiyası Azərbaycanda pambıqçılığın inkişaf etdirilməsi uğrunda mübarizədə" monoqrafiyasında da partiyanın rəhbər rolu və kəndlilərə atalıq qayğısı mövzusuna geniş yer verilir.[3]

---

1929). B., 1961; Mirhadıyev M.N. Azərbaycanda sosializm quruculuğunun Lenin planının təntənəsi. B., 1956; yenə onun. Azərbaycan SSR kommunizm quruculuğu yollarında. B., 1961; Мамедов А.М. Борьба Коммунистической партии Азербайджана за восстановление хлопководства (1921-1925 гг.) // Ученые записки АГУ, 1958, №2; Мамедов И.М. Комсомол – верный помощник Компартии в борьбе за коллективизацию. Б., 1955; Poladov M. Azərbaycan kənd təsərrüfatı 40 ildə. B., 1960; Köçərli T.K. Azərbaycan Kommunist Partiyasının sosialist sənayeləşdirmə və kənd təsərrüfatının elliklə kollektivləşdirilməsi uğrunda mübarizəsi (1926-1929-cu illər) // Sov.İKP MLİ Azərbaycan filialının əsərləri, c. XXIII, 1959; Qüdrətov D. Birinci beşillik illərində Azərbaycanda sovxoz quruculuğu. B., 1962; Rəhimov Ə.C. 1920-ci ildə Azərbaycanda mülkədar torpaq sahibliyinin ləğvi. B., 1962; Папуша З.Е. Деятельность КП Азербайджана по организации сельскохозяйственного производства и оказанию помощи крестьянству (1920-1926 гг.) // Труды Института истории партии при ЦК КП Азербайджана, т. 27. Б., 1964; Мусаева Т.А. Революция и народное образование в Азербайджане. Б., 1979; Очерки истории рабочего класса Азербайджана, том I. Б., 1974 və s.

1 Əliyev X.A. Kommunist Partiyasının Azərbaycan SSR-in Sovet İttifaqının qüdrətli pambıq mənbələrindən birinə çevirmək uğrunda mübarizəsi (1930-1934-cü illər). B, 1953, 367 s. Dissertasiya BDU-nun kitabxanasında saxlanılır.

2 Əliyev X., Əlimirzəyev X. Azərbaycanda kənd təsərrüfatının kollektivləşməsi tarixindən. B., 1957.

3 Əliyev X.A. Sovet hakimiyyəti Azərbaycan kəndlilərinə nə verdi? B., 1957; yenə onun. Azərbaycan zəhmətkeşləri respublikada pambıqçılığın bərpa edilməsi uğrunda mübarizədə // Azərbaycan SSR EA Tarix İnstitutunun əsərləri. B., 1957, c. XII, s. 5-30; yenə onun. Kommunist Partiyası Azərbaycanda pambıqçılığın inkişaf etdirilməsi uğrunda mübarizədə. B., 1960.

X.O.Əlimirzəyevin “Kommunist Partiyasının 1930-1934-cü illərdə kənd təsərrüfatının kollektivləşdirilməsi uğrunda mübarizəsi (Azərbaycan SSR Şirvan zonası materialları əsasında)”[1] adlı dissertasiyasında kolxozların təşkilat-təsərrüfat və siyasi cəhətdən möhkəmlənməsi, Azərbaycanda kolxoz quruluşunun qələbəsi məsələləri işıqlandırılır. Burada və onun digər əsərlərində kənd rayonlarında MTS-lərin, kəndlilərin yaxşı işləməsi üçün uşaq bağçalarının yaradılması, kolxozçuların “zərbəçi” adlarının verilməsi ilə işə həvəsləndirilməsi kimi məsələlər önə çəkilir, ümdə vəzifənin pambıqçılığı daha da inkişaf etdirmək olduğu göstərilir.[2]

İ.K.Qasımovun “Azərbaycan Kommunist Partiyası kənd təsərrüfatının kollektivləşdirilməsi uğrunda mübarizədə (1930-1934-cü illər)” adlı dissertasiyasında[3] əsas diqqət Kommunist Partiyasının kənd təsərrüfatının kollektivləşdirilməsindəki sahəsindəki roluna verilib. İ.K.Qasımovun 1957-ci ildə nəşr etdirdiyi “Azərbaycanda kolxoz hərəkatına dair” adlı monoqrafiyasında qısaca olaraq elliklə kollektivləşmə ərəfəsində kənd təsərrüfatının inkişafı tarixi tədqiq olunur. Məlum səbəblər üzündən bu əsərdə də elliklə kollektivləşdirilmə siyasəti tərif edilir.[4] Əsərdə Azərbaycan SSR-də kənd təsərrüfatının kollektivləşdirilməsi və pambıqçılığın genişləndirilməsi partiyanın kənddə yürütdüyü yeganə düzgün xətt kimi dəyərləndirilir.

M.Səlimovun “Azərbaycan Kommunist Partiyası yeni iqtisadi siyasətə keçid dövründə (1921-1923-cü illər)” adlı əsərində[5] yeni iqtisadi siyasətə keçid, onun mahiyyəti və xüsusiyyətləri, torpağın kəndlinin sərəncamına verilməsi, kənd təsərrüfatının bərpasında qarşıda duran əsas məsələlər, sovet hakimiyyətinin ilk illərində kəndlinin kənd təsərrüfatı vergisindən azad edilməsi, kənddəki ictimai-siyasi vəziyyət sovet nailiyyətlərinin təbliği baxımından işıqlandırılmışdır.

İ.M.Məmmədovun “Azərbaycan komsomolu kənd təsərrüfatının kollektivləşməsi uğrunda mübarizədə Kommunist Partiyasının sadiq köməkçisidir (1930-1934-cü illər)” adlı dissertasiyasında KP-nın rolundan, onun ehtiyat qüvvəsi hesab olunan komsomoldan söhbət açılır və kənd təsərrüfatının kollektivləşdirilməsi uğrunda mübarizədə onun daha fəal rol oynamasından bəhs olunur.

---

1 Əlimirzəyev X.O. Kommunist Partiyasının 1930-1934-cü illərdə kənd təsərrüfatının kollektivləşdirilməsi uğrunda mübarizəsi (Azərbaycan SSR Şirvan zonası materialları əsasında). B., 1953. Dissertasiya BDU-nun kitabxanasında saxlanılır.

2 Əlimirzəyev X. Kənd təsərrüfatının əsaslı yüksəlişi uğrunda. B., 1955; yenə onun. Azərbaycan kəndi sovet hakimiyyəti illərində. B., 1963; yenə onun. Борьба Коммунистической Партии Азербайджана за социалистическое преобразование деревни (1920-1937). Б., 1967; yenə onun. Советский Азербайджан – детище Великого Октября. Б., 1958 və s.

3 Qasımov İ.K. Azərbaycan Kommunist Partiyası kənd təsərrüfatının kollektivləşdirilməsi uğrunda mübarizədə (1930-1934-ci illər). B., 1953. Dissertasiya BDU-nun kitabxanasında saxlanılır.

4 Qasımov İ.Q. Azərbaycanda kolxoz hərəkatına dair. B., 1957.

5 Səlimov M. Azərbaycan Kommunist partiyası yeni iqtisadi siyasətə keçid dövründə: B., 1959.

Xalq təsərrüfatının bərpası məsələləri bu və ya digər dərəcədə Y.A.Tokarjevskinin tədqiqatlarında da öz əksini tapmışdır. Onun "Sovet Azərbaycanı tarixinin oçerkləri (1921-1925-ci illər)" monoqrafiyasında [1] bəhs olunan dövrdə baş vermiş hadisələr xronoloji ardıcıllıqla verilmişdir. Bu əsərdə də sovet dövrü müəllifləri üçün ənənəvi olan 1921-1925-ci illər bərpa dövrünün uğurla başa çatması kimi götürülür.

S.S.İbrahimovun "Kommunist Partiyası ikinci beşillik illərində kənd təsərrüfatında sosializm yarışının təşkilatçısıdır (1933-1937-ci illər)" əsərində[2] də daha çox sosializm quruculuğu, sovet təsərrüfatı, fəhlə və kəndli ittifaqı, sinfi mübarizə məsələlərindən danışılmasına baxmayaraq, Azərbaycan kəndindəki aqrar münasibətlərə dair faktiki materiallar vardır.

A.M.Məmmədovun "Kommunist Partiyasının Azərbaycan kənd təsərrüfatının bərpası uğrunda mübarizəsi (1921-1925-ci illər)" dissertasiyasında[3] yeni iqtisadi siyasət illərində kənd təsərrüfatının bərpasında KP-nın rolundan bəhs olunur.

Fəhlə və kəndlilərin ittifaqının möhkəmləndirilməsinə həsr olunmuş əsərlərdən biri Z.B.Şıxlinskinin eyniadlı "Azərbaycan kəndində sovet quruculuğu (1926-1932-ci illər)" və 1933-1937-ci illəri əhatə edən əsərlərində Azərbaycan kəndi, kəndlisi və sovet hakimiyyətinin onlara münasibəti məsələləri işıqlandırılmışdır.[4] Adı çəkilən əsərlərin hər ikisində sovet hakimiyyəti illərində Azərbaycan kəndinə və kəndlisinə göstərilən qayğı və diqqət nəzərə çatdırılır, kənd təsərrüfatının kollektivləşdirilməsi işində yerlərdə əyintilərə və zorakılıqlara yol verildiyi göstərilir və bunun günahı yerli hakimiyyət nümayəndələrinin üzərinə qoyulur.

Ə.C.Rəhimovun "1920-ci ildə Azərbaycanda mülkədar torpaq sahibliyinin ləğvi" əsərində Azərbaycanda sovet hakimiyyətinin qələbəsi və mülkədarların torpaqlarının müsadirə olunmasından və zümrə kimi ləğvindən bəhs edilir.[5]

P.Ə.Əzizbəyovanın "1920-1923-cü illərdə V.İ.Leninin Azərbaycanda sosializm quruculuğuna rəhbərliyi" və "V.İ.Lenin və Azərbaycanda sosialist yenidənqurmaları"[6] adlı monoqrafiyalarında Azərbaycan SSR-də kənd təsər-

---

[1] Токаржевский Е.А. К вопросу о восстановлении сельского хозяйства Азербайджана в 1921-1926 гг. // Труды Института истории и философии АН Азербайджанской ССР. Б., 1956, т. IX, с. 114-135.

[2] İbrahimov S.S. Kommunist Partiyası ikinci beşillik illərində kənd təsərrüfatında sosializm yarışının təşkilatçısıdır (1933-1937-ci illər). Azərbaycan SSR materialları üzrə. B., 1957. Dissertasiya BDU-nun kitabxanasında saxlanılır.

[3] Məmmədov A.M. Kommunist Partiyasının Azərbaycan kənd təsərrüfatının bərpası uğrunda mübarizəsi (1921-1925-ci illər). B., 1958. Dissertasiya BDU-nun kitabxanasında saxlanılır.

[4] Şıxlinski Z.B. Azərbaycan kəndində sovet quruculuğu (1926-1932-ci illər). B., 1975; Azərbaycan kəndində sovet quruculuğu (1933-1937-ci illər). – B., 1965.

[5] Rəhimov Ə.C. 1920-ci ildə Azərbaycanda mülkədar torpaq sahibliyinin ləğvi. B., 1962.

[6] Азизбекова П.А. Руководство В.И.Ленина социалистическим строительством в Азербайджане в 1920-1923 гг. Б., 1960; yenə onun. В.И.Ленин и социалистические преобразования в Азербайджане (1920-1923). М., 1962.

rüfatının bərpası və qismən də kəndlilərin vəziyyəti məsələlərinə toxunulub.

C.B.Quliyevin "Lenin milli siyasətinin bayrağı altında (1920-1925-ci illərdə Kommunist Partiyasının Azərbaycanda Lenin milli siyasətini həyata keçirməsi)" və "Azərbaycanda İkinci Respublikanın yaranması tarixinə dair" adlı monoqrafiyalarında da Azərbaycan kəndi, kəndlisi və kənd təsərrüfatının bərpası məsələlərinə toxunulur. Birinci əsərdə müəllif sovet hakimiyyətinin cəmi beş il ərzində Lenin bayrağı altında bütün problemləri həll etdiyini yazsa da, ikinci monoqrafiyada artıq SSRİ-nin hakim dairələrini, sovet rejimini tənqid edir, hadisələrə daha tənqidi yanaşır.[1]

E.İ.Məmmədovun 1967-ci ildə nəşr olunmuş "Elliklə kollektivləşmə illərində Azərbaycan kəndində sinfi mübarizə" adlı monoqrafiyasında da Kommunist Partiyasının rolu və həyata keçirdiyi siyasətə bəraət qazandırılır.[2]

Kənd təsərrüfatının bərpası və elliklə kollektivləşdirilmə məsələlərinin irriqasiya ilə bağlı sahələləri O.B.Əhmədovun əsərlərində də işıqlandırılır.[3]

Azərbaycan SSR-də heyvandarlığın inkişafı ilə bağlı məsələlər iqtisadçı N.M.Məmmədovun "Sovet Azərbaycanında heyvandarlığın inkişaf etdirilməsi tarixindən (1920-1937)"[4] adlı dissertasiyasında və məqalələrində işıqlandırılır.

A.İ.Xəlilovun "Azərbaycan zəhmətkeşlərinin V.İ.Leninin kooperasiya planının həyata keçirilməsi uğrunda mübarizəsi"[5] adlı monoqrafiyasında kənd kooperativləri ilə bağlı məsələlər də araşdırılır.

D.H.Qüdrətovun 1961-ci ildə "Birinci beşillik illərində Azərbaycanda sovxoz quruculuğu" adlı əsərində respublikanın ayrı-ayrı bölgələrində sovxozların yaradılmasından və onların fəaliyyətindən bəhs olunur.[6]

Nəzərdən keçirilən bu əsərlərdə bu və ya digər dərəcədə bolşevizm siyasəti alternativsiz "yeganə və ən doğru yol" kimi təqdim edilir. Adları çəkilən tədqiqat əsərlərində KP-nın kənddəki fəaliyyəti, kənddə apardığı sinfi

---

[1] Гулиев Дж.Б. Под знаменем ленинской национальной политики (Осуществление Коммунистической партией ленинской национальной политики в Азербайджане в 1920-1925 гг.). Б., 1972; yenə onun. К истории образования Второй Республики Азербайджана. Б., 1997, s. 49.

[2] Məmmədov E.İ. Elliklə kollektivləşmə illərində Azərbaycan kəndində sinfi mübarizə. B., 1967.

[3] Ахмедов О.Б. Борьба азербайджанского народа за осуществление ленинских идей орошения в республике. Автореф. канд. дисс. Баку, 1965; yenə onun. Азербайджанский народ в борьбе за восстановление и развитие оросительных средств в республике (1920-1926) // Ученые записки АГУ. Сер.ист. филос., 1965, №4.

[4] Мамедов Н.М. Из истории развития животноводства в Советском Азербайджане (1920-1937). Автореф. канд. дисс., Б., 1967; yenə onun. Состояние животноводства Азербайджана в восстановительном периоде // Известия АН Азерб.ССР, серия экономики, 1967, №1.

[5] Халилов А.И. Трудящиеся Азербайджана в борьбе за осуществление кооперативного плана В.И.Ленина. Б., 1970.

[6] Гудратов Д. Совхозное строительство в Азербайджане в годы первой пятилетки. Автореф... канд. ист.наук: Б., 1961.

mübarizə məsələləri müdafiə və təbliğ edilir.

SSRİ-nin çökməsindən sonra Azərbaycan kəndi və kəndlisi, onlara münasibətlə bağlı yazılmış tədqiqatlardan F.F.İbrahimlinin "Azərbaycan kəndində sosial-siyasi proseslər (1920-1930)" adlı monoqrafiyası[1] diqqəti cəlb edir. Müəllif sovet hakimiyyəti illərində bu sahədə görülmüş işlərin müsbət və mənfi məqamlarını qiymətləndirir. Əsərdə 1920-ci il aprel çevrilişindən sonra kənddə atılan ilk uğursuz addımlar, kənddə yoxsulluğun və siyasi gərginliyin artması, bolşevik hakimiyyətinə qarşı yerlərdə xalq üsyanları və müqavimət hərəkatı, kollektiv təsərrüfatların yaradılmasında ilk uğursuz cəhdlər, yeni iqtisadi siyasətin ab-havanı bir qədər dəyişməsi məsələləri tədqiq olunur.

Y.M.Mahmudovun 2002-ci ildə dərc etdirdiyi "Azərbaycanın dövlətçilik tarixinə ümumi bir baxış: Şimali Azərbaycanda kommunist rejimi (1920-ci il 28 aprel-1991-ci il 18 oktyabr)"[2] adlı məqaləsində bütövlükdə sovet rejimi, o cümlədən XX əsrin 20-30-cu illərinin repressiya siyasətinə qiymət verilir.

E.Ə.Məhərrəmovun "«Kommunist» qəzeti və Azərbaycan SSR kənd təsərrüfatının bərpası məsələləri (1921-1928-ci illər)" adlı monoqrafiyasında[3] dövri mətbuat və arxiv materialları əsasında göstərilən dövrdə Azərbaycan SSR kənd təsərrüfatının bərpası məsələləri də araşdırılır. Sovet Azərbaycanına qarşı mərkəzin yürütdüyü qeyri-obyektiv siyasət tənqid edilir.

C.M.Cəfərovun "Azərbaycan kəndi kollektivləşmə illərində. 20-ci illərin sonu -30-cu illər" adlı monoqrafiyasında[4] dövrün sosial-iqtisadi və siyasi vəziyyəti, yeni iqtisadi siyasətin sonlarında Azərbaycan kəndində kooperasiyanın müxtəlif formalarının tətbiqi, kənd təsərrüfatının kollektivləşdirilməsinin sürətləndirilməsi və onun Azərbaycanda özünəməxsus xüsusiyyətləri, Azərbaycanda kolxoz quruluşunun sosial-iqtisadi və siyasi cəhətdən möhkəmləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər və kəndə münasibətdə partiyadaxili mübarizənin kəskinləşməsi məsələləri, siyasi repressiyalar və ona qarşı üsyanlar araşdırılır.

Azərbaycan kənd təsərrüfatının bərpası və sonrakı kollektivləşdirmə dövrünün tarixinə, bütövlükdə aqrar münasibətlərə bir sıra ümumiləşdirici əsərlərdə də toxunulmuşdur.[5]

---

[1] İbrahimli F.F. Azərbaycan kəndində sosial-siyasi proseslər (1920-1930). B., Mütərcim, 1996.

[2] Mahmudov Y.M. Azərbaycanın dövlətçilik tarixinə ümumi bir baxış: Şimali Azərbaycanda kommunist rejimi (1920-ci il 28 aprel-1991-ci il 18 oktyabr) // Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası. №1, 2002, s.72-86

[3] Магеррамов Э.А. Газета «Коммунист» (на азерб. языке) и вопросы восстановления сельского хозяйства Азербайджанской ССР (1921-1928). Б.: 2004.

[4] Cəfərov C.M. Azərbaycan kəndi kollektivləşmə illərində. 20-ci illərin sonu -30-cu illər. B., 2008.

[5] СССР в период восстановления народного хозяйства (1921-1925 гг.). М., 1955; История СССР с древнейших времен до наших дней, т. 8, М., 1967; Советское народное хозяйство в 1921-1925 гг. М., 1960; Сельское хозяйство СССР. М., 1960; Октябрь и советское крестьянство, 1917-1927, М., 1977; История крестьянства СССР. История советского крестьянства, т. I, Крестьянство в первое десятилетие Советской власти – 1917-1927. М., 1986 və s.

Yeddicildlik "Azərbaycan tarixi"nin 2000-ci ildə nəşr olunmuş VI cildində kommunizm və bolşevizm tərifçiliyindən qaçmaq meylləri diqqəti cəlb edir. Bu əsərin yazılması keçid dövrünə düşdüyündən keçmişdən ayrılma və yeniliklərlə barışma səhnəsinin təsvirində bəzi təzadlı fikirlər diqqəti cəlb edir.

Beləliklə, Şimali Azərbaycanda XX əsrin 20-30-cu illərində aqrar münasibətlərin tarixşünaslığına dair yazılmış əsərlərə icmal baxış göstərir ki, sovet hakimiyyəti illərində yazılan əsərlərdə əsas məqsəd mövcud hakimiyyətin siyasətini müdafiə etmək olmuş, SSRİ-nin çökməsindən sonra aparılan tədqiqat işlərində hadisələrə obyektiv qiymət verilməsinə səy göstərilmişdir.

**Tədqiqatın mənbə bazası.** Aparılan tədqiqat üçün ilkin mənbə rolunu arxiv sənədləri, mətbuat materialları və dərc olunmuş elmi-tədqiqat əsərləri təşkil etmişdir. Aqrar münasibətlərin öyrənilməsi üçün o dövrün dövlət xadimlərinin məqalələri, nitqləri və çıxışlarının faktoloji əhəmiyyəti vardır. Tədqiqat prosesində əsasən Azərbaycan Respublikası Dövlət Arxivinin 379 (AzMİK), 271 (Xalq Ziraət Komissarlığı), 385 (AzMİK yanında Kənd Təsərrüfatına Yardım Komitəsi), 1017, 2618 (Cəbrayıl, Zəngilan), 1981 (Qaryagin), 2271 (Qubadlı, Kəlbəcər, Laçın) və s., ARDA Gəncə Filialının 346, 347, 499 (Gəncə Qəza Şurası), Azərbaycan Respublikasının Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivinin 1 (Azərbaycan K(b)P MK), Azərbaycan MEA A.A.Bakıxanov adına Tarix İnstitutu Elmi Arxivinin 1-ci fondlarının materiallarından istifadə olunmuşdur. Bu fondlarda respublika fondları hökuməti və hakimiyyət orqanlarının, bütövlükdə kənd təsərrüfatı və aqrar məsələlər üzrə geniş materiallar mövcuddur. XX əsrin 20-30-cu illərinin mətbuat materiallarından da geniş istifadə olunmuşdur.

Son illərdə nəşr olunan və uzun müddət məxfi qrifi altında saxlanıldığından alimlərin diqqətindən kənarda qalmış bir sıra dəyərli sənədlər toplularının da əhəmiyyəti əvəzolunmazdır. Bu qəbildən Rusiya EA Rusiya Tarixi İnstitutu, Rusiya Federal Arxiv Xidməti, Rusiya ən yeni sənədlərin saxlanılması və öyrənilməsi mərkəzi, Rusiya Federasiyası Dövlət arxivi, Rusiya Dövlət iqtisad arxivi və Rusiya Dövlət hərbi Arxivi, Rusiya Federal Təhlükəsizlik xidmətinin Mərkəzi arxivinin Amerika Birləşmiş Ştatları, Kanada, Avstraliya, Böyük Britaniya, Koreya Respublikasının aparıcı universitetləri ilə birlikdə hazırladıqları möhtəşəm "Sovet kəndinin faciəsi. Kollektivləşdirmə və qolçomaqdan salınma. 1927-1939" adlı 6 kitabdan (5000 səhifədən çox) ibarət 5 cildlik sənədlər və materiallar toplusu diqqəti xüsusilə cəlb edir.[1] Bu topluda Azərbaycana aid olan son dərəcə dəyərli məlumatlar vardır. Buradakı materialların əksəriyyəti ilk dəfə olaraq ÜİK(b)P Mərkəzi Komitə, onun Siyasi bürosu, Təşkilat bürosu və Katibliyi, MİK, RSFSR XKS, Birləş-

---

[1] Трагедия советской деревни. Коллективизация и раскулачивание. 1927-1939. Документы и материалы. В 5-ти тт. / Т. 1. Май 1927- ноябрь 1929. М., 1999; Т. 2. Ноябрь 1929-декабрь 1930. М., 2000; Т. 3. Конец 1930-1933. М., 2001; Т. 4. 1934-1936 М., 2002; Т. 5. 1937-1939. Кн. 1. 1937. М., 2004; Т. 5. 1937-1939. Кн. 2. 1938-1939. М., 2006.

dirilmiş Dövlət Siyasi İdarəsi, müxtəlif xalq komissarlıqları, Ali Məhkəmə, Prokurorluq, Ordu Siyasi idarəsi və s. təşkilatlarından toplanılmışdır.

Tədqiqatda Rusiya Federal Arxiv Xidməti və Rusiya Dövlət Sosial-Siyasi Tarix Arxivinin Açıq Cəmiyyət İnstitutunun (Soros Fondu) dəstəyi ilə birgə nəşr etdirdikləri 5 cildlik "YİS-i necə qırdılar. ÜİK(b)P MK plenumlarının stenoqramları 1928-1929-cu illər" sənədlər toplusundan da istifadə edilmişdir.[1]

Azərbaycan SSR-də nəşr olunmuş sənədlər toplusundan danışdıqda, ilk növbədə 1988-ci ildə işıq üzü görmüş "Azərbaycan İnqilab Komitəsinin dekretləri (1920-1921). Sənədlər toplusu"nu[2] qeyd etmək lazımdır. Burada AİK-in mövcud olduğu dövrdə – 1920-ci ilin aprelindən 1921-ci il mayın sonunadək verilmiş dekretlər, bir sıra qərar və qətnamələr, əmrlər təqdim olunur. Bu nəşrdə məxfi sənədlər verilməsə də, toplu kimi əhəmiyyətlidir.

"Azərbaycan Kommunist Partiyasının qurultayları, konfransları və MK plenumlarının qətnamə və qərarları (1920-1937)"[3] da dəyərli sənədlər toplusudur. Bu toplunun dörd cilddə buraxılması nəzərdə tutulsa da, onun yalnız I cildi buraxılmış, SSRİ-nin çökməsindən sonra qalan cildlərin çapını davam etdirmək mümkün olmamışdır.

Sənədlər toplusu kimi nəşr olunan kitablardan biri də "Azərbaycanda kənd təsərrüfatının elliklə kollektivləşdirilməsi (1927-1929-cu illər)"[4] toplusudur. Onun yalnız I cildi işıq üzü görmüşdür.

Tədqiqat prosesində dövri mətbuat materiallarından da geniş istifadə olunmuşdur.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiyanın yazılmasından əsas məqsəd XX əsrin 20-30-cu illərində sovet hakimiyyətinin yürütdüyü antiazərbaycan və antiinsani münasibətlərlə müşayiət olunan aqrar münasibətlər, kənd təsərrüfatının bərpası, zorakı kollektivləşdirilmə, qolçomaqların bir təbəqə kimi məhv edilməsi, əhaliyə qarşı siyasi və iqtisadi repressiyaların həyata keçirilməsi araşdırılır. Müəllif tədqiqat prosesində aşağıdakı mühüm məsələləri həll etməyə çalışmışdır:

- Şimali Azərbaycanın Rusiya tərəfindən işğalından sonra aqrar məsələlərin vəziyyətinin öyrənilməsi;
- torpaq məsələsinin həlli prosesini, eləcə də kənd təsərrüfatı vergisinin təyinolunma spesifikasını aydınlaşdırmaq, Azərbaycan SSR-ə qarşı vergi ayrı-

---

[1] Как ломали нэп. Стенограммы пленумов ЦК ВКП(б) 1928-1929 гг. В 5-ти томах. Т. 1. Объединенный пленум ЦК и ЦКК ВКП(б) 6-11 апреля 1928 г. М., 2000; Т. 2. Пленум ЦК ВКП(б) 4-12 июля 1928 г. М., 2000; Т. 3. Пленум ЦК ВКП(б) 16-24 ноября 1928 г. М., 2000; Т. 4. Объединенный пленум ЦК и ЦКК ВКП(б) 16-23 апреля 1929 г. М., 2000; Т. 5. Пленум ЦК ВКП(б) 10-17 ноября 1929 г. М., 2000.

[2] Декреты Азревкома (1920-1921). Сборник документов. Б., 1988.

[3] Коммунистическая партия Азербайджана в резолюциях и решениях съездов, конференций и пленумов ЦК (1920-1937): В 4-х томах. Т. I. Б., 1986.

[4] Коллективизация сельского хозяйства Азербайджана. Сборник документов и материалов. В 3-х тт. Б., 1982, т. I.

seçkiliyinin aparılmasını müəyyən etmək və qonşu respublikalarla vergi fərqini göstərmək;

- 1920-ci ilin əvvəllərində Azərbaycan SSR-də kənd təsərrüfatının vəziyyətini, yeni iqtisadi siyasət illərində burada sovet dövlətinin aqrar siyasətini xarakterizə etmək;

- Azərbaycan SSR ərazisində elliklə kollektivləşdirilmənin xüsusiyyətlərini açıb göstərmək;

- Respublikada qolçomaqlıqdan salınma prosesini, onun forma və metodlarını sovet hakimiyyətinə qarşı kəndlilərin müqavimətini və onun nəticələrini təhlil etmək;

- Kollektivləşdirmənin başa çatdırılması prosesini və onun Azərbaycan kəndi üçün törətdiyi faciələri tədqiq etmək.

**Dissertasiya işinin metodoloji əsası**nı bütün mənbə və məlumatların kompleks şəkildə və tənqidi təhlil əsasında müqayisəli araşdırılmasına əsaslanan obyektiv tarixi tədqiqat təşkil edir. Qarşıya qoyulan məsələlərin araşdırılması zamanı konkret tarixi yanaşmadan istifadə olunmuş, faktiki materialların elmi müqayisə, təhlil və ümumiləşdirmə metodu tətbiq edilmiş, məlum süjetlər və müddəalar hadisələrin obyektiv mənzərəsini yaratmaq məqsədilə təfəkkür süzgəcindən keçirilmişdir.

Problemin tədqiqi zamanı başlıca meyar olaraq, tarixilik, elmilik, tarixi hadisələrə elmi yanaşma, müqasiyəli təhlil əsas tədqiqat prinsipi və üsulu kimi seçilmişdir.

**Tədqiqatın elmi yeniliyi**. Dissertasiyada yeni arxiv materiallarının xarici ölkələrdə işıq üzü görmüş yeni tədqiqat əsərlərinin ilk dəfə olaraq elmi dövriyyəyə cəlb edilməsi ilə XX əsrin 20-30-cu illərinin aqrar münasibətləri yeni baxışla araşdır və aşağıdakı yeniliklərə nail olunmuşdur:

– Azərbaycan tarixşünaslığında ilk dəfə olaraq XX əsrin 20-30-cu illərində Azərbaycan SSR-də aqrar münasibətlər kompleks şəkildə tədqiq olunmuşdur;

–XX əsrin 20-30-cu illəri tarixində aparılmış kollektivləşdirilmənin tarixşünaslıqda ilk dəfə olaraq Azərbaycan gerçəkliyinə zid bir siyasət olması tədqiq edilmişdir;

–İlk dəfə olaraq kəndli kateqoriyaları haqqında və onların bir-birlərinə münasibətlərinə dair elmi təhlil aparılmış və bu məsələlər ətraflı tədqiq edilmişdir;

– ölkə iqtisadiyyatı, o cümlədən, kənd təsərrüfatının inkişafında mühüm rol oynayan xırda mülkədarlara və qolçomaqlara, hətta qismən ortabablara bolşevik münasibətinin aqrar sahəyə təsiri faktik materiallar əsasinda ətrafli təhlil edilmişdir;

– Azərbaycan kəndlilərinin sosial zəmində baş verən çıxışlarının banditizm və qolçomaqlara qarşı mübarizə kimi qələmə verilməsi və bu məsələlərin mahiyyəti ətraflı təhlil edilmişdir;

– Azərbaycan SSR-də Rusiyanın strateji xammal kimi pambığa olan ehtiyaclarının ödənilməsi xatirinə həmin sahənin inkişaf etdirilməsi üçün ilk vaxtlar kollektivləşdirilmədə biləRəkdən ləngimələrə yol verilməsi işdə ətraflı

göstərilmişdir;

–Kollektivləşdirilmiş təsərrüfatlarının pambıq plantasiyalarına çevrilməsi və bu sahədə qadınların əməyinin istismarı ətraflı göstərilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti**.

Tədqiqat işindən Azərbaycan SSR-in 20-30-cu illər tarixinə aid dərsliklərin, dərs vəsaitlərinin, monoqrafiyaların hazırlanmasında;

Azərbaycan sovet dövrü tarixinə və tarixşünaslığına aid ümumiləşdirilmiş elmi əsərlərin yazılmasında;

Ali məktəblərin bakalavr, magistratura və doktorantura mərhələləri üçün mühazirə, seminar dərslərinin və xüsusi kursların keçirilməsində;

**Tədqiqatın aprobasiyası**. Dissertasiyanın əsas müddəaları müəllifin dərc etdirdiyi 7 məqalə və tezislərində öz əksini tapmış və dissertasiya işi Azərbaycan MEA A.A.Bakıxanov adına Tarix İnstitutunun Azərbaycanın müasir tarixi şöbəsində (09-07-2015, protokol № 8)sonuncu müzakirə kecirilmişdir.

**Dissertasiyanın quruluşu**. Dissertasiya giriş, üç fəsil, nəticə və istifadə olunan mənbələr və ədəbiyyat siyahısından ibarətdir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın birinci fəsli «**Azərbaycan kəndi sovet işğalından sonra və yeni iqtisadi siyasət**» adlanır. Bu fəsil üç yarımfəsildən ibarətdir.

Birinci yarımfəsil "**İşğaldan sonrakı ilk illərdə Azərbaycan kəndində sosial, iqtisadi və siyasi prosseslər**" adlanır. Burada Azərbaycan kəndinin əsrlər boyu formalaşmış aqrar münasibətlərindən, habelə Rusiya imperiyası tərəfindən tətbiq edilən müstəmləkəçi siyasətdəndanışılır. 1920-1921-ci illərdə sovet hakimiyyətinin ala-yarımçıq, vədlərlə dolu aqrar islahatları Azərbaycan İnqilab Komitəsinin (AİK) "Torpaq haqqında dekret"i[1]"hərbi kommunizm"siyasəti, saplaq vergisinin tətbiqindən bəhs edilir. Göstərilir ki, bolşeviklərin torpaq işlərini aparmaq təcrübəsi yox idi. Bu səbəbdən yerlərdə torpaq idarələri faktiki olaraq nə edəcəklərini, nədən başlayacaqlarını bilmirdilər. Bütövlükdə Azərbaycan SSR-də torpağın kəndliyə verilməsi məsələsinin birdəfəlik həll olunmasından danışmaq hələ çox tez idi. Torpağın verilməsi prosesi əməlli-başlı qaydasına düşməmiş yeni iqtisadi siyasətə keçildi ki, burada da qarşıya qoyulan məsələlər fərqli idi.

1921-ci ildə Azərbaycan SSR-də 300 min xırda kəndli təsərrüfatı var idi və müxtəlif növ artellərin, kommunaların və s. yaradılması ilə sayı 354 minə çatdı.[2] Kəndli təsərrüfatlarının bu sayaq xırdalanması yaxşı hal deyildi. Xırda təktəsərrüfatçıların zorla daha iri təsərrüfatlarda – "kolxoz"larda birləşməsi qərara alındı. Bu sayaq birləşmə Azərbaycan üçün yad idi, çünki burada dövlət səviyyəsində kəndlinin kolxoza təhkimçiliyi nəzərdə tutulurdu. Bu siyasətin kökündə yanlış bir tezis dururdu ki, guya "yalnız iri sosialist əkinçiliyi

[1] СУ Азербайджанской ССР, 1920, №1, ст. 3, с. 8; ARDA, f. 271, siy. 1, iş 1, v. 53; Декреты Азревкома. Б., 1988. с. 16.

[2] История Азербайджана, т. III, ч. 1, с. 356.

kənd təsərrüfatının məhsuldar qüvvələrinin inkişafını təmin, kəndlinin vəziyyətini kökündən yaxşılaşdıra bilər". Əslində iri təsərrüfatların idarə olunması və ya iş istiqamətinin dəyişdirilməsi xırda təsərrüfatlara nisbətən çevik deyil, daha ləng gedir. Xırda təsərrüfatların yönümünü və məhsuldarlığını çox asanlıqla dəyişdirmək mümkündür.

Kəndli təsərrüfatının daxili strukturu kooperativ birliklərinin bu və ya digər formalarında iştirak etməsi ilə əlaqədar olaraq dəyişilməmişdi. Kütləvi aqrar-statistika mənbələrinin göstərdiyi kimi, bu təsərrüfatlar istehlakçı, yarınatural və hətta bir çox hallarda natural idi. Bu sayaq kooperasiyalaşdırmaq dövlətinkiləşdirməyin nisbətən yüngül variantı idi, müəyyən mənada, kəndlilərin bu strukturlar vasitəsilə təhkim edilməsi onların təsərrüfatlarının və özlərinin rifahının yüksəldilməsinə müsbət təsir göstərməmişdir.

Azərbaycan kəndlilərinin sosial təbəqələşməsinin təhlili göstərir ki, o dövrdə əsas qrup ortabablar idi və onların sayı əsas etibarilə müharibə, aclıq və sovet hakimiyyətinin qolçomaqlara qarşı hücumunun artması sayəsində sonuncuların hesabına artırdı, beləliklə də bütövlükdə kəndli kütlələrinin rifahı, güzəranı konkret məqsədi aydın olmayan bolşevik siyasəti nəticəsində getdikcə aşağı düşürdü.

Azərbaycan kəndində hadisələrin dramatik inkişafında mühüm rolu taxıl amili oynadı. Azərbaycan İnqilab Komitəsi 1920-ci il avqustun 23-də "Taxıl inhisarı haqqında dekret" verdi.[1] Amma bir illik acı təcrübə göstərdi ki, əmrlə, sərəncamla, inhisar yaratmaqla əhalini ərzaqla təmin etmək, bazarı idarə etmək olmaz. 1921-ci il mayın 7-də Azərbaycan İnqilab Komitəsi "Hər cür ərzaq inhisarının ləğv edilməsi haqqında dekret"[2] verdi. Yeri gəlmişkən, başabəla ərzaq saplağı da bu dekretlə ləğv edilir, əvəzində natural vergi tətbiq olunurdu.

Bilavasitə kəndliyə aid olan və 5 may 1920-ci ildə verilən hökumət qərarı torpaq haqqında dekret idi.[3] Sovet hakimiyyətinin aqrar siyasətinə görə torpaq üzərində xüsusi mülkiyyət hüququ ləğv edilirdi.

Dekretə uyğun olaraq, mülkədar torpaq mülkiyyətinin ləğv edilməsi mülkədar malikanələri və əmlakının geniş surətdə müsadirə edilməsi yolu ilə həyata keçirilirdi.

Müsadirə edilmiş torpaqlar birinci növbədə muzdurlara, torpaqsız və aztorpaqlı kəndlilərə verilirdi. Amma bütün bunlar son dərəcə yarımçıq şəkildə həyata keçirilirdi. Yeni hökumətin tam təcrübəsizliyi nəzərə alınsa da, onun ikibaşlı fəaliyyətinə birmənalı qiymət vermək olmur. Belə ki, hər cür varidatı az-çox təcrübəsi olan, məhsul istehsal edə bilən təsərrüfatçının əlindən alır, onu idarə edə bilməyən, təsərrüfatçılıqdan birdəfəlik xəbəri olmayan şəxslərə paylayır və onun da istehsal edə bildiyi cüzi məhsulu əlindən zorla alırdılar. Azərbaycanda bu yığımlar ərzaq saplağı, çanaq vergisi adı altında aparılırdı.

---

[1] Bax: Декрет о хлебной монополии // Декреты Азревкома (1920-1921), с. 229.

[2] Bax: Декрет об отмене всех видов продовольственной монополии // Декреты Азревкома (1920-1921). Сборник документов, с. 479.

[3] Декреты Азревкома (1920-1921), с. 16.

1921-ci ilin əvvəllərində ərzaq saplağının ləğv edilməsi və ərzaq vergisinə keçilməsi haqqında qərar qəbul edildi Bu dəyişiklik tarixə "yeni iqtisadi siyasət" adı ilə daxil oldu. Bu siyasət mükəmməl olmasa da, üstünlükləri çox idi, amma onun da həyata keçirilməsi yarımçıq qaldı və sonradan ondan da imtina edildi.

Dissertasiyanın **I fəslinin 2-ci yarımfəsli** "**Kəndli kateqoriyaları**" adlanır və burada sovet hakimiyyətinin ilk illərində Azərbaycan kəndində mövcud olan kəndli sosial qrupları haqqında məlumat verilir. Kəndli sosial qrupları qısa müddət ərzində say baxımından artmağa və bir-birlərini əvəz etməyə başlamışdı. Əvvəllər mövcud olan mülkədar və bəylər Torpaq haqqında dekretlə torpaqsızlaşdırıldıqdan, yəni bir kateqoriya kimi ləğv edildikdən sonra onların yerini qolçomaqlar tutdu. Eyni zamanda onlarla yanaşı, kənddə çox olmayan, amma kəndlə şəhər əhalisi arasında vasitəçi rolu oynayan torpaqsız kəndlilər – alverçilər (nepmanlar) özlərini büruzə verdilər. Bunlar kənd təsərrüfatından uzaqlaşmış, amma kəndlə əlaqələrini kəsməyənlər idilər. Bu sırada ortabablar da qolçomaqlarla yoxsullar arasında mövqe tuturdular. Qolçomaqlar işçi qüvvəsi cəlb etmələrinə görə müəyyən edildiyi halda, 2 və ya 3 qoyunu, yaxud inəyi olanları hansı kriteriya ilə kateqoriyaya ayırmaq məchul qalır. Bu prosesdə torpaqlarını itirənlər və tam torpaqsızlar, eləcə də torpaqsızlaşanlar – muzdurlar və ya rəncbərlər də işçi qüvvəsi rolunu oynayırdılar. Muzdurlarla müqayisədə yoxsul sayılanların azacıq da olsa torpağı, bir-iki keçisi və digər dolanışacağı var idi. Kolxozçu adlanan yeni yaranmış kateqoriya yuxarıda sadalanan kateqoriyalardan olan, əsasən yoxsul və yoxsullaşmış, müflisləşmiş, ümumi kollektiv təsərrüfatda birləşən kəndlilərdən ibarət idi. Sovxoz fəhləsi də əslində kəndli idi. Bunların digər kəndlilərdən fərqi ondan ibarət idi ki, onlar dövlət təsərrüfatında işləyir, zəhmət haqları müqabilində əməkgünü deyil, aylıq maaş alırdılar. Onların işlədikləri təsərrüfat kollektivə deyil, dövlətə məxsus idi və "sovxoz", yəni "sovetskoye xozyaystvo" ("sovet təsərrüfatı") adlanırdı.

Beləliklə, kənddə illər ərzində formalaşmış kəndli təbəqələri ilə yanaşı Kommunist partiyası və sovet hökumətinin kənddə həyata keçirdiyi tədbirlər nəticəsində yeni təbəqələr də formalaşmağa başladı.

Dissertasiyanın I fəslinin "**Kənd təsərrüfatı vergiləri və kəndli mükəlləfiyyətləri**" adlanan 3-cü yarımfəslində dövlətin mühüm siyasətlərindən olan vergi siyasəti haqqında söhbət açılır. Bolşeviklərin tətbiq etdikləri qondarma "hərbi kommunizm" və "ərzaq sapalağı" ölkənin qısa müddətdə təsərrüfatsızlaşdırılmasında həlledici rol oynamışdı. YİS-ə kçilməsindən sonra çoxsaylı və ağır olmalarına baxmayaraq, 1921-ci il mayın 17-də kənd təsərrüfatı vergisinin tətbiq olunması müsbət hal kimi şərh edilir. Məhz atılan bu addım kəndlinin narazılığının qarşısını ala bildi. Lakin bununla yanaşı həm də "çanaq" adlanan "könüllü"-məcburi (!) natural yığım tətbiq edildi və AzMİK-in 1921-ci il 18 sentyabr tarixli qərarı ilə qanuniləşdirildi.[1]

---

[1] Azərbaycan tarixi, 7 cilddə. 6-cı cild, s. 92-93.

Azərbaycan kəndində vəziyyəti çətinləşdirən məqamlardan biri də işğalçı XI qırmızı ordunun buradakı özbaşnalığı idi.[1]

Azərbaycan SSR kəndlilərinin Rusiyanın Volqaboyu aclarına yardımı da onların boynuna qoyulmuş ağır yük idi.[2]

Həmin illərdə bütövlükdə İttifaq üzrə, o cümlədən, Azərbaycan SSR-də vergi özünəməxsus şəkildə hər il dəyişən metodlarla yığılırdı. Gəlir haqqında müvafiq məlumat olmadan yuxarıdan verginin həcmi müəyyən edilir və dekretləşdirilirdi. Sonra bu "norma" respublikalar, qəzalar, təsərrüfatlar arasında bölüşdürülürdü və onların imkanlarından asılı olmayaraq təyin olunan norma ödənilməli idi. Kəndlilərin bir qismi tamamilə zəif və imkansız olduğundan vergidən azad olunurdu, bu şərtlə ki, onların vergi paylarını digər təsərrüfatlar ödəsinlər. Beləliklə, əhalinin işlək qismi vergi ödəyir, vergidən azad olunan qismi isə tədricən ələbaxımlığa öyrəşir və təsərrüfatının inkişafında elə də maraqlı olmurdu. Bundan əlavə onlar kənddə partiyanın dayağı hesab edilir və lazımi məqamda özlərini büruzə verirdilər. Təkcə bunu demək kifayətdir ki, 1926/27-ci təsərrüfat ilində kəndlilərin yalnız 3,76%-i Azərbaycan SSR üzrə vahid kənd təsərrüfatı vergisinin üçdə birindən artığını ödəmişdir. Başqa sözlə, normal sayıla biləcək 119500 təsərrüfat 700900 rubl vergi ödədiyi halda, onlardan 10 dəfə az olan 11946 daha rentabelli təsərrüfat 905896 rubl ödəmişdir. Bu da nəzərə alınmalıdır ki, həmin dövrdə kəndlilərin 38%-i zəifliklərinə görə vergi ödənişindən azad edilmişdi.[3]

Yerli vergi xidməti də son dərəcə pis işləyirdi. Məsələn, Ağdam qəzasında 1924-cü ildə 100 min əhali əvəzinə uçota alınmış 60 min nəfərdən vergi toplanılmışdır. Qalan 40 min nəfər isə hesaba alınmamışdı və onların ödəməli olduqları vergini uçota alınanlar ödəmişdi.[4]

1924-cü ildə respublikada 45800 desyatin bağ sahəsi var idi, bunlardan yalnız 12968 desyatini uçota alınmışdı. 24600 desyatin üzümlükdən yalnız 15376 desyatini uçota alınmışdı.[5] Nəticədə yenə də yalnız uçota alınan təsərrüfatların sahələri üzrə vergi ödənilmişdi.

Verginin toplanılmasını çətinləşdirən məqamlardan biri də onların sayının son dərəcə çox olması idi. Kəndli həm Ümumrespublika orqanları, həm də yerli rəhbərlik tərəfindən təyin olunmuş 10-dan artıq vergi verməli, əlavə mükəlləfiyyətlər yerinə yetirməli idilər.

Vergi təyin etmənin əsasını Azərbaycan torpaqlarının gerçək məhsuldarlığı deyil, ZaqXKS-nin müəyyənləşdirdiyi rəqəmlər təşkil edirdi.[6]

---

[1] ARDA, f. 271, siy. 1, iş 8, v. 255; f. 85, siy. 4, iş 29, v. 11-11arxa; «Kommunist» qəzeti, 1920, 9 iyul; 21 dekabr və s.

[2] Зейналова С.А. Помощь трудящихся Азербайджана голодающим Поволжья (1921-1922 гг.) // Материалы по истории Азербайджана. Музей истории Азербайджана АН Азербайджанской ССР, т. VIII. Б., 1973, с. 63-79.

[3] "Kommunist" qəzeti, 1927, 10 may.

[4] «Kommunist» qəzeti, 1925, 27 aprel.

[5] «Kommunist» qəzeti, 1925, 28 aprel.

[6] ARPİİSSA, f. 1, siy. 74, iş 133, v. 90 arx.

Azərbaycan K(b)P MK Rəyasət Heyətinin hətta qeyri-azərbaycanlılardan ibarət olan üzvləri belə haqsızlıqla barışmaq istəməyərək, Rəyasət Heyətində 1923-cü il avqustun 14-də bu məsələni müzakirə edərək, qərara almışdılar ki, RK(b)P Zaqafqaziya Ölkə Komitəsi (ZÖK) qarşısında vəsatət qaldırılsın ki, kənd təsərrüfatı vergisinin azaldılması ilə bağlı təcili tədbirlər görülsün.[1]

Cənubi Qafqaz respublikaları üzrə vergi yükünün bütün ağırlıqları biləraəkdən Azərbaycan üzərinə qoyulurdu. Azərbaycan Cənubi Qafqaz respublikaları üçün müəyyən edilmiş vergi yükünün ümumi həcminin 51,7%-ni ödəməli idi.[2] Əslində vəziyyət daha acınacaqlı idi. Nə Ermənistan, nə də Gürcüstan tədqiq olunan dövrdə bir dəfə də olsun, vergi planlarını tam yerinə yetirməmişlər. ZSFSR-in vergi kəsirini bütünlüklə Azərbaycan ödəyirdi.

XMK-nın müvəkkili Teymur Əliyevin 1924-cü il fevralın 27-də "Kommunist" qəzetinə verdiyi müsahibəsində bildirilir ki, 1923-cü ildə bir gürcü 1 rubl 11 qəpik, erməni 1 rubl 45 qəpik, azərbaycanlı isə **2 rubl 32 qəpik** vergi ödəmişdir. 1924-cü ildə gürcü üçün 1 rubl 89 qəpik, erməni üçün 2 rubl 76 qəpik, azərbaycanlı üçün isə **3 rubl 80 qəpik** vergi təyin olunmuşdu.[3] Bu ayrı-seçkilik nə qədər inkar edilsə də əsasən milli və dini mənsubiyyətdən irəli gəlirdi və rəhbərlikdəki qüvvələrlə də bağlı idi.

Kəndlilərdən, bütövlükdə istehsalçılardan alınan vergi növlərindən biri də çarizm dövründə yığılan qarns və ya qarnes[4] natural vergi növü idi. Yeni iqtisadi siyasətə keçidlə əlaqədar bu ödəniş öhdəliyi aradan qalxmışdı. 1928-ci ildə SSRİ XKS bu vergi növünü yenidən qanuniləşdirdi. Dəyirmanlar bu vergini taxıl üyüdən kəndlilərdən yığmalı idilər.[5] Qarns yığımının həcmi 5%-dən 10%-dək müəyyənləşdirilmişdi. Azərbaycan SSR XKS qarnsla bağlı 1930-cu il avqustun 19-da xüsusi qərar qəbul etmişdir.[6] Qarns yolu ilə yığılan taxılın əsas hissəsi xaricə ixrac edilirdi.

Respublikada artırılmış vahid kənd təsərrüfatı vergisi yığılmasından əlavə, burada bir sıra Ümumittifaq və yerli təşkilatlar dolayısı yollarla əlavə vergilər toplamağa, mükəlləfiyyətlər müəyyənləşdirməyə çalışırdılar.[7] Bu məsələnin nizamlanılması üçün Azərbaycan SSR XKŞ 14 iyul 1924-cü ildə qərara almışdı ki, digər təşkilatların hər hansı əlavə mükəlləfiyyətləri qanunazidd sayılsın.[8]

Çayların sahillərinin möhkəmləndirilməsi, kanalların, yerli və respublika əhəmiyyətli yolların çəkilməsi, yüklərin daçınması, bataqlıqların qurudulması, məktəb və xəstəxana (və ya tibb məntəqəsi) tikintisi işlərində kəndlilər

---

[1] ARPİİSSA, f. 1, siy. 74, iş 133, v. 90 arx.
[2] «Kommunist» qəzeti, 1926, 30 avqust.
[3] «Kommunist» qəzeti, 1924, 27 aprel.
[4] Rusiyaya bu vergi növü Polşadan keçmişdi. 1 qarns 1900 qr radələrində idi.
[5] http://ru.wikipedia.org/wiki/Гарнцевый_сбор
[6] ARDA, f. 411, siy. 2, iş 27, v. 1
[7] Заря Востока, 1924, 20 июня.
[8] ARDA, f. 379, siy. 3, iş 144, v. 124.

üzərinə mükəlləfiyyət qoyulurdu.[1]

Dissertasiyanın II fəsli "**Azərbaycan kəndində kollektivləşdirilməyə keçid**" adlanır və iki yarımfəsildən ibarətdir. Bu fəslin "**Azərbaycan SSR-də kollektivləşmənin mərhələləri**" adlanan 1-ci yarımfəslində göstərilir ki, təsərrüfatlar müxtəlif artellərdə, kommunalarda, birliklərdə, kolxozlarda, sovxozlarda və s. zorakı yolla birləşdirilirdi.

1920-ci ilin aprelində çox yanlış olaraq kənd təsərrüfatı məhsullarının əsas istehsalçısı olan qolçomaqlar yeni rejimin başlıca düşməni elan olundu. İqtisadiyyat "xalq üçündür" şüarı ilə bəyan edildi ki, guya kiçik təktəsərrüfatçılar şəhəri ərzaqla, sənayeni isə kənd təsərrüfatı xammalı ilə təmin edə bilməz və bunun üçün mütləq iri kollektiv təsərrüfatların yaradılması labüddür. Hərçənd kiçik təktəsərrüfatçılar mahiyyət etibarilə daha çevik olur və dəyişikliklərə daha tez uyğunlaşırlar.

Kəndli kütləsini özünə tərəf çəkmək istəyən Azərbaycan İnqilab Komitəsi 1920-ci il noyabrın 20-də sahə və kənd "yoxsul komitələri" yaratdı.[2]

Növbəti addımlardan biri savadsız yoxsul kəndli təbəqəsini birləşdirməyə cəhd kimi müxtəlif növ birliklərin – "köybirliyi", "kəndbirliyi", "pambıqbirliyi", "yunbirliyi", "bağbirliyi", müxtəlif artellərin, şirkətlərin və s. yaradılması oldu. Amma süni yaradılmış və çox da möhkəm olmayan bu təşkilatlar YİS-ə keçidlə bağlı bir-birinin ardınca dağıldılar.

1927-ci ilin sonu – 1928-ci ilin əvvəllərində kollektivləşdirmənin bütün cəbhə boyu məcburi genişləndirilməsinə və istehsalçı kəndliyə qarşı hücuma keçildi. Stalinin özü şəxsən Qərbi Sibirə getmiş, digər bölgələrə də nümayəndələr göndərərək, onlardan kollektivləşmə ilə bağlı qələbə raportları verilməsini tələb etmişdir.

1928-ci ilin ortalarından başlayaraq Azərbaycanda da kolxoz təşkili süni "sürətləndirilir", hətta açıq zorakılıq tətbiq etmək hallarına yol verilirdi. 1929-cu ilin yayında ölkədə "bəzi dairələrin kəndli təsərrüfatları elliklə tamam kollektivləşdirilsin" şüarı irəli sürüldü".[3]

Beləliklə, kollektivləşdirilmə faktiki olaraq dağıdıcı alətə çevrildi.

Kolxoz quruculuğu ilə bağlı Azərbaycan SSR-də kəndlilərə qarşı aparılan savaşlar 1934-cü ilə kimi davam etmişdi. Yəni faktiki olaraq burada kolxozlaşma daha çox vaxt aparmış və daha sərt olmuşdu. Burada məcburi kolxozlaşmaya qarşı çox böyük çıxışlar, üsyanlar olmuşdu. 1930-cu ildə Noraşen (1200 iştirakçı) və Şəki-Zaqatala (3700 iştirakçı) üsyanları burada sovet hakimiyyətinin yıxılmasınadək gətirib çıxarmışdı.[4]

Dissertasiyanın II fəslinin "**Kollektivləşmənin ilkin mərhələsində sosial vəziyyət**" adlanan 2-ci yarımfəslində kollektivləşdirilmə dövründə kəndlinin

---

[1] ARDA, f. 85, siy. 4, iş 20, v. 11-12; iş 29, v. 8-8 arxa; iş 20, v. 13; f. 379, siy. 1, iş 5407, v. 1-2; f. 411, siy. 1, iş 893, v. 7 arxa və s.

[2] Газета "Коммунист" (Баку), №175, 29 ноября 1920.

[3] Azərbaycan tarixi, 7 cilddə. 6-cı cild, s. 291.

[4] Трагедия советской деревни. Коллективизация и раскулачивание. 1927-1939. Документы и материалы. В 5-ти тт. Т. 2. Ноябрь 1929 – декабрь 1930, с. 704.

durumu, onun dövlətlə qarşılıqlı münasibətləri nəzərdən keçirilir.

Kənd təsərrüfatının kütləvi kollektivləşdirilməsi tarixin həddini aşmış hadisəsi idi. Yeni kolxoz sistemi dövlətə imkan verirdi ki, kənd təsərrüfatı məhsullarının məcburi qaydada dövlətin fonduna göndərilməsi üçün kəndliyə öz vergi təyinatını verə bilsin və kənddə bürokratik hökmranlığını qura bilsin. Kollektiv təsərrüfat qeyri-rəsmi şəkildə dövlət təsərrüfatı demək idi. Kollektiv təsərrüfatla bağlı hər hansı əyinti aşkarlananda, rəsmi sənədlərdə "kəndliyə dəyən zərər" yox, "dövlətə dəyən ziyan" ifadəsi işlədilirdi. Kənddəki hörmətli, adlı-sanlı adamları susdurur, ruhaniləri həbs edir, dövlətin casuslarına çevrilmək istəməyən kənd ziyalıları güclü təqiblərə məruz qalırdılar. Onların torpaqları ictimailəşdirilir, əmlakı vergi hesabına zorla əllərindən alınırdı.

Özbəkistan və Azərbaycanı Sovet İttifaqının əsas pambıqçılıq regionlarına çevirmək nəzərdə tutulmuşdu. Pambıqbirliyinin Zaqafqaziya Pambıq Komitəsi ilə hələ 11 sentyabr 1928-ci ildə birgə keçirdiyi müşavirədə xam pambığa qoyulan qiymət üstündə tərəflər arasında mübahisə meydana çıxmışdı. Planlarını əsasən Naxçıvan (Ermənistan) və Qazax (Gürcüstan) hesabına ödəyənlərə Zaqafqaziya Pambıq Komitəsi hər kq üçün 70 qəpik təklif etdiyi halda, Azərbaycan kəndlilərinə yalnız 55 qəpik verəcəyində inad edirdi.[1]

Azərbaycan kəndlilərinə qarşı aparılan bu ayrı seçkilik başqa sahələrdə də var idi və həmişə özünü büruzə verirdi.

Hər yaz və payız əkin kampaniyaları ərəfəsində və məhsul yığımı zamanı respublika partiya rəhbərliyi Bakıdan kəndlərə xüsusi nümayəndələr göndərərək, kəndliləri pambıq əkməyə və yığılan məhsulu dövlətin hazırlıq orqanlarına ucuz qiymətə verməyə məcbur edirdilər. Bir qayda olaraq təlimatçı adlandırılan gələn nümayəndələr təsərrüfatçılarla əkin sahəsi və yığılacaq məhsulun dövlətə təhvil verilməsi şərtilə onun həcmi barədə öhdəlik müqaviləsi bağlayırdılar. Kolxozçular üçün ödəniş "əməkgünü"[2] ilə müəyyən edilirdi. 1930-cu ildən 1966-cı[3] ilə kimi kəndliyə aylıq və hətta illik maaş verilmirdi və əvəzində ona müəyyən qədər əməkgünü yazılar, ilin sonunda dövlətin təyin etdiyi vergilər və borclar natura ilə ödənildikdən sonra ona natura ilə pay ayrılardı. Kəndlinin icazəsiz kənddən çıxmaq ixtiyarı yox idi.

Kəndlinin sənaye malları ilə təminatı da pis təşkil olunmuşdu. Kəndlilərin, özlərinə lazım olan şeyləri almaq üçün taxıl və meyvəni qara bazarda satmaqdan başqa əlacları qalmırdı. Möhtəkirlər kolxozları gəzərək taxıl, ət və meyvə alır, sonradan bunları bazar alverçilərinə satırdılar.

Təbii ki, bu sadalananların kəndlinin sosial durumunun pisləşməsində yeri vardır.

Dissertasiyanın III fəsli **"Kənd təsərrüfatinin "elliklə kollektivləşdirilməsi" siyasəti"** adlanır və üç yarımfəsildən ibarətdir. **"Kollektivləşdirmənin həlledici mərhələsi. Pambıq uğrunda mübarizə"** adlanan birinci ya-

---

[1] ARDA, f. 271, siy. 1, iş 320, v. 58-58 arxa

[2] Зохрабов Ф.Д. Возникновение колхозного трудодня // Ученые записки Азербайджанского Государственного Университета. 1955. №5. С. 89-103.

[3] Трудодень // http://ru.wikipedia.org/wiki/Трудодень

rımfəsildə göstərilir ki, kollektivləşdirilmə kəndin gündəlik həyatını pozdu.

Hakimiyyət dairələrində belə hesab edirdilər ki, yoxsullar və muzdurlar, ortabablar kütləvi şəkildə kolxozlara axacaq, bununla da MTS-lərin yaradılmasına geniş meydan açılacaq və sovxoz quruculuğunda mühüm addım atılmış olacaq.[1] Bu məqsədlə bütün MTS-lərin və kolxozların yerli büdcə, qalanlar isə dövlət büdcəsi hesabına maliyyələşdirildiyi bildirirdi.[2]

Pambığa olan tələbat o qədər çox, yığılan pambıq isə o qədər az idi ki, kəsirdə qalmış planı doldurmaq xatirinə hətta qış aylarında da camaatın evlərini gəzib, yorğan-döşəkləri müsadirə etməklə pambıq hazırlığı aparırdılar. Bu siyasət kəndlinin torpaqdan ayrı düşməsinə, hətta əzab-əziyyətlə yetişdirdiyi məhsulu yığmaqdan imtina etməsinə gətirib çıxarırdı.[3]

Pambıq yığımını gücləndirmək məqsədilə kəndlilərin yaylaqlara getməsinin qarşısı alınırdı. Köçənlər üzrə hökumət komissiyasının sədri Məmməd Məmmədxanov şəxsən Muğan kəndlərinə gəlmiş, kəndliləri yaylağa getməkdən çəkindirməyə çalışmışdır.[4]

Baş Siyasi İdarənin agentləri və prokurorlar pambıq səpini və məhsulunun yığımına nəzarət edirdilər, bəzən də silahlı gözətçilər qoyurdular ki, pambıqçıların tarlalardan vaxtından əvvəl getmələrinə imkan verməsinlər. Prokurorlar kənddə tam nəzarət funksiyasına malik idilər.[5]

1932-ci ilin noyabrında rejim ədliyyə orqanlarına tapşırdı ki, pambığın oğurlanmasına görə “amansız” cəza verilsin. 1932-ci ilin ikinci yarısında Azərbaycan SSR Ali Məhkəməsi 89 kəndlini sosialist mülkiyyətini talan etmələrinə görə ölüm hökmü ilə cəzalandırmışdı, 140 nəfər isə 10 il müddətinə həbs düşərgəsində cəza çəkməyə məhkum edilmişdi.[6] 1932-ci ilin payızında Qaradonlu rayonunda məhkəmə 246 kəndliyə həbs düşərgələrində saxlanılmaqla 10 il, 113 nəfərə isə 3 il iş kəsmişdi.

Kolxoz əmlakına əsas nəzarət orqanlarından biri MTS-lərin siyasi şöbələri, onların Qırmızı Professorlar İnstitutu və Ali Kommunist məktəbini qurtaran rəisləri idi.[7] Bu adamların ixtisas təhsilləri olmasa da, onlar stajlı partiya üzvü olduqlarından, sözləri keçirdi.

Hələ 1933-34-cü illərdə Stalin və Molotov Azərbaycan partiya təşkilatına təzyiqləri artırdılar. “Təcili surətdə MK-nın Büro və XKS-nin üzvlərini pambıq yığımı və hazırlığına yardım üçün geridə qalan əsas həlledici rayonlara göndərin. Götürülmüş ölçülər və pambığın yığımı və hazırlığının gedişi haq-

---

1 ARDA, f. 85, siy. 4, iş 20, v. 5-45

2 ARDA, f. 85, siy. 4, iş 20, v. 167.

3 Cəfərov C.M. Azərbaycan sovet kəndi XX əsrin 20-ci illərinin sonu -30-cu illərdə. Tarix üzrə elmlər doktoru dissertasiyasının avtoreferatı. B., 2010, s. 36.

4 "Kommunist" qəzeti, 6 iyun, 1933

5 Solomon P.H. Soviet Criminal Justice under Stalin. Cambridge, 1996. P. 223-247.

6 ARDA, f. 379, siy. 2, iş 3023, v. 24.

7 Əliyev X., Əlimirzəyev X. Azərbaycanda kənd təsərrüfatının kollektivləşməsi tarixindən: 1930-1934-cü illər, s. 169.

qında hər beş gündən bir məlumat verin. Stalin. Molotov”.[1]

Üçüncü fəslin 2-ci yarımfəsli **“Qadınların kolxoz hərəkatına cəlb edilməsi”** adlanır və burada Azərbaycan kəndində kollektivləşmədə yeni cəmiyyət quruculuğunun mühüm problemlərindən biri – qadının ictimai-sosial, siyasi, mədəni həyatda mövqeyinin təmin olunması məsələsi nəzərdən keçirilir.

İlk mərhələdə Azərbaycan qadınları içərisində işi əsasən şəhər qadın klubları və kəndli qadın guşələri aparırdı. Amma hər halda şəhərlərdən, hətta qəza və rayon mərkəzlərindən fərqli olaraq kənd yerlərində qadınları ictimai işə cəlb etmək o qədər də asan deyildi.

1925-ci il martın 7-də Azərbaycan K(b)P MK plenumu öz qətnaməsində qadın məsələsinə ayrıca yer ayıraraq, kəndin ictimai həyatında onlardan istifadə olunmasını önə çəkdi, partiya və komsomol təşkilatlarına xüsusi tapşırıqlar verildi.[2] Artıq 1926-ci ilin əvvəllərinə respublikada 42 qadın klubu var idi ki, bunların da 16-sı kənd yerlərində idi.[3] Respublika üçün bu çox az olsa da, hər halda başlanğıc idi.

Kollektivləşməyə keçildikdən sonra partiya rəhbərliyi qadınlardan kənddə dayaq kimi daha çox istifadə etməyi qərara aldı. 1931-ci il iyunun 9-da Azərbaycan K(b)P MK kolxozçu qadınlar arasında iş haqqında xüsusi qətnamə qəbul etdi.[4] Bu dəfə konkret təşkilatlara – Azərbaycan Kolxoz Mərkəzinə (Kolxozsentr), rayon partiya təşkilatlarına, rayon icraiyyə komitələrinə, Ziraət Komissarlığına, Pambıqbirliyinə, Əli Bayramov adına kluba, Azərbaycan əmək və məişətinin yaxşılaşdırılması üzrə Komissiyasına və s. xüsusi tapşırıqlar verildi.

Əslində kolxoz quruluşu, kollektiv əmək qadınları həqiqətən də ictimai həyata cəlb etdi, onları maddi nemət istehsalçısına çevirdi. Bu, məsələnin müsbət tərəfi idi. Amma eyni zamanda qadınlara qarşı zorakılıqlar da artdı.

Qeyri pambıqçılıq rayonlarında – Nuxa, Göyçay və Quba qəzalarının kəndlərində qadınların kolxoz hərəkatında iştirakı daha çox nəzərə çarpırdı.[5] Fəal qadınlardan sovet aparatı işçiləri formalaşır, onların bir çoxu kənd soveti sədri seçilirdilər. 1927-ci ildə 9 qadın kənd soveti sədri, 11 nəfər isə dairə icraiyyə komitəsinə sədr seçilmişdi. 1928-ci ildə 119 qadın kənd soveti sədri, 160 qadın dairə icraiyyə komitəsi sədri, 36 qadın qəza icraiyyə komitəsinə üzv seçilmişdi.[6] 1929-cu ildə seçilmiş 1100 nəfər kənd soveti sədrindən 116-

---

[1] Bax: Баберовски Й. Враг есть везде. Сталинизм на Кавказе, s. 719-720.

[2] Коммунистическая партия Азербайджана в резолюциях и решениях съездов, конференций и пленумов ЦК (1920-1937): В 4-х тт. Т. I, с. 221-225.

[3] Мурадова А.Дж. Вовлечение женщин Азербайджанской ССР в органы государственной власти (20-30-ые годы XX в.). Б., 2007, s. 55.

[4] Коммунистическая партия Азербайджана в резолюциях и решениях съездов, конференций и пленумов ЦК (1920-1937): В 4-х томах. Т. I, с. 552-555.

[5] Azərbaycan tarixi, 7 cilddə. 6-cı cild, s. 323.

[6] Мурадова А.Дж. Вовлечение женщин Азербайджанской ССР..., s. 60.

sı qadın idi.[1] Azərbaycan kəndində "qırmızı guşələr" və "kəndli qadın guşələri", yaylaqlarda isə "qırmızı çadırlar" fəaliyyət göstərirdi.

Bəzi yerlərdə qadınların klublar və cəmiyyətlər vasitəsilə fəallığa çağırılması əks nəticələr verirdi, bir çox hallarda onların həddən ziyadə fəallıqları sayəsində ailələri dağılır, boşanmaların sayı artır, hətta bəzən kişilərə qarşı qadın zorakılığı da qeydə alınırdı.

Dinə qarşı aparılan mübarizə qadınlar tərəfindən daha çox mənfi qarşılanırdı.

Dissertasiyanın III fəslinin "**MTS-lər və onların siyasi şöbələri**" adlanan 3-cü yarımfəslində ayrı-ayrı bölgələrdə MTD (Maşın-Traktor dəstələri) və MTS (Maşın-Traktor stansiyaları) təşkil edilməsindən, onların fəaliyyətindən, habelə MTS-lərin yanında partiya təşkilatlarının və siyasi şöbələrin yaradılmasından, gördüyü işlərdən bəhs edilir.

1930-cu ildə Azərbaycanda 133 kolxoz partiya özəyi, sovxoz və MTS-lərdə 11 partiya özəyi var idi. İlin sonunadək bunların sayı üç dəfəyədək artırıldı.[2]

Kəndə yardım məqsədilə partiya təşkilatlarının tapşırığı və bölgüsü ilə şəhərlərdəki sənaye müəssisələrinin fəhlələri kəndləri və kolxozları hamiliyə götürürdülər, müəyyən müddətə kəndlərə gedir, özləri ilə avadanlıqlar aparır, kənd təsərrüfatı alətlərinin təmiri ilə məşğul olurdular. 1932-ci ildə hamilik təşkilatları xətti ilə Bakıda kolxoz və MTS-lər üçün 320 traktorçu, 382 kolxoz briqadiri, 426 hesabdar, cəmi 1244 nəfər mütəxəssis kadr hazırlanmışdı.[3]

Birinci beşilliyin sonuna yaxın kənd təsərrüfatında 1153 traktora malik 29 MTS fəaliyyət göstərirdi. Onlardan 25-i yalnız pambıqçılıq rayonlarında 2135 kolxoza xidmət edirdi.[4] MTS-lərin nəzdində siyasi şöbələr yaradılmışdı. Onların fəaliyyəti nəticəsində 1933-cü ilin iyununadək Ucar MTS-indən 24, Qaryagin MTS-indən 15, Qaraçala sovxozundan 30 nəfər antisovet ünsür təmizlənmişdi.[5] MTS və sovxozlar yanında siyasi şöbələrin buraxdıqları qəzetlərin materialları əsasında yüzlərlə adam qolçomaq və antisovet ünsür kimi "ifşa edilmiş və zərərsizləşdirilmişdi".[6] MTS-lərdə və partiya özəklərinin yenidən qurulması işi 1935-ci ilin əvvəlində başa çatdırıldı.[7]

Dissertasiyanın **nəticə** hissəsində aparılan elmi araşdırmalara, əldə edilmiş elmi nəticələrə yekun vurulmuşdur.

---

[1] Azərbaycan tarixi, 7 cilddə. 6-cı cild, s. 323.
[2] Azərbaycan Kommunist Partiyası tarixinin oçerkləri. B., 1964, s. 499.
[3] Məmmədov E.İ. Elliklə kollektivləşmə illərində Azərbaycan kəndində ..., s. 92.
[4] Azərbaycan tarixi, 7 cilddə. 6-cı cild. B., 2000, s. 241.
[5] ARDA, f. 379, siy. 3, iş 2543, v. 13.
6 «Бакинский рабочий» qəzeti, 4 oktyabr 1934.
[7] Azərbaycan Respublikasının Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi, f. 1, siyahı 74, iş 338, vər. 55.

**Dissertasiyanın əsas məzmunu müəllifin nəşr olunmuş aşağıdakı məqalələrində öz əksini tapmışdır:**

1. Yeni İqtisadi siyasətə keçid mərhələsində Azərbaycan kəndlisinin sosial vəziyyətinə dair. Azərbaycan MEA A.A.Bakıxanov adına Tarix İnstitutunun elmi əsərlər,38-ci cild, Bakı, 2011, s.
367-369
2. Azərbaycan SSR-də Kollektivləşməyə Dair, Jurnal
"Tarix və Onun Problemləri". 2012, №3,s.211-216
3. Kənd Təsərrüfatı Vergisi Məsələləri və Azərbaycan Kəndlisi (XX əsrin 20-ci illəri), Jurnal "Tarix və Onun Problemləri". 2012, №4,s.112-121
4. Крестьянство Азербайджанской ССР накануне новой экономической политики, Jurnal. Кавказ и Мир. Международный научный журнал.2012, №13,s.79-83
5.Азербайджанский крестьянин в период перехода от советской оккупации к новой экономической политике, Гілея: науковий вісник. Збірник наукових праць / Гол. ред. В.М. Вашкевич. – К.: ВІР УАН, 2012. – Випуск 60 (№5). – 814 с, s.262-266
6. Azərbaycan SSR-də kollektivləşmənin mərhələlərinə dair, Azərbaycan Respublikası. Uğurlar və perspektivlər. 16 noyabr 2011-ci il. Beynəlxalq elmi konfransın materialları. Bakı, 2012, s.201-207
7. Sovet Azərbaycanında XX əsrin 20-30-cu illərində aqrar münasibətlərin tarixşunaslığına dair, Azərbaycan MEA Naxçıvan Bölməsi
Xəbərlər ictimai və Humanitar Elmlər Seriyası.Cild 8,№1, Naxçıvan 2012, s.97-106

**Г.Г.Етирмишли**

# Аграрные отношения в Азербайджанской ССР (20-30-е годы XX в.)

## РЕЗЮМЕ

Диссертация посвящена исследованию аграрных отношений в Азербайджанской ССР в 20-30-е годы XX в. Этот период был самым сложным и противоречивым периодом в истории азербайджанской деревни.

В диссертационной работе впервые сделана попытка комплексного подхода к изучению аграрных отношений Азербайджанской деревни в 20-30-е годы XX в. Годы, чередующие военный коммунизм, НЭП, коллективизацию, были настоящим испытанием для крестьян Азербайджана.

Диссертационная работа состоит из введения, трех глав, 8 параграфов, заключения, списка использованных источников и **литературы.**

Во **введении** диссертации обоснованы актуальность темы, выбор хронологических рубежей, обстоятельно проанализированы источниковая база и историография проблемы, определены цель и задачи, практическая значимость и новшества исследования.

**В первой главе, озаглавленной «Азербайджанская деревня после советской оккупации и новая экономическая политика»,** состоящей из трех параграфов, на основе большого количества источников, опиисывается положение азербайджанских крестьян начала 20-х годов и введение новой экономической политики, впервые в азербайджанской историографии этого периода рассматриваются категории крестьян, сельскохозяйственные налоги и крестьянские повинности.

Во **второй главе «Переход к коллективизации в азербайджанской деревне»** диссертации, состоящий из двух параграфов, исследуются этапы коллективизации, и анализируется социально-экономическое и политическое положение деревни.

В **третьей главе «**Политика "сплошной коллективизации" сельского хозяйства**»,** состоящей из трех параграфов, освещаются последний этап коллективизации и борьба за хлопок, привлечение женщин в колхозное движение, МТС и политотделы при них.

В **заключении** обобщены и подытожены основные результаты и выводы диссертационной работы.

**G.G.Yetirmishli**

## Agrarian relations in Azerbaijan SSR (20-30 years of XX century)

### SUMMARY

The thesis deals with agrarian relations in Azerbaijan SSR in 20 30-s of XX century. This period was the most difficult and controversial period in the history of the Azerbaijani villages.

The thesis first attempt a comprehensive approach to the study of agrarian relations in the village of Azerbaijan 20-30-s years of the twentieth century. Military communism, the NEP, and the collectivization were realy challenge for farmers in Azerbaijan.

The thesis consists of an introduction, three chapters, 8 paragraphs, conclusion, list of references and literature.

In the introduction of the thesis the relevance of the topic, the choice of chronological boundaries, thoroughly analyzed source base and historiography of the problem, the purpose and objectives, the practical importance of research and innovation.

In the first chapter, entitled "The Azerbaijani village after the Soviet occupation and the New Economic Policy", consisting of three sections, based on a large number of sources, describes the position of the Azerbaijani peasants early 20-ies and the introduction of the New Economic Policy, the first time in Azerbaijan historiography this period are considered categories of peasants, agricultural taxes and duties peasants.

In the second chapter, "The transition to collectivization in the Azerbaijani village of" thesis, which consists of two sections, explores the stages of collectivization, and analyzes the socio-economic and political situation of the village.

In the third chapter, "The "complete collectivization" agriculture policy", consisting of three sections, covered the last stage of collectivization and the struggle for cotton, the involvement of women in the collective-farm movement, MTS and political departments under them.

In conclusion, compiled and summarized the main findings and conclusions of the thesis.

Əla növ kağız, formatı 60x84 - $^{1}/_{16}$
Tirajı 100 nüsxə.
AMEA TIKM

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ИСТОРИИ им. А.А.БАКИХАНОВА**

*На правах рукописи*

**ГЮЛЬЧИНА ГУРБАН гызы ЕТИРМИШЛИ**

# АГРАРНЫЕ ОТНОШЕНИЯ В АЗЕРБАЙДЖАНСКОЙ ССР (20-30-е годы XX в.)

Специальность: 5503.02 – “Отечественная история”

# А В Т О Р Е Ф Е Р А Т

диссертации на соискание ученой степени
доктора философии по истории

**БАКУ – 2016**